RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 93 (9548) 7 may 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Qafqazın gündəmini İLHAM ƏLİYEV müəyyən edir



**Bu gün dünyanın geosiyasi mənzərəsi heç də ürəkaçan deyil. Müxtəlif coğrafiyalarda qaynar ocaqların, müharibələrin mövcudluğu, həmçinin yeni təhdidlərin artması bəşəriyyəti ciddi sınaqlar qarşısında qoyub. Çünki bütün dövrlərdə müharibələr yaddaşlara qan-qada, ölüm-itimlə, dağıntılarla yazılıb.**

Yaxın Şərqdə yaşanan münaqişə, Rusiya-Ukrayna müharibəsi, məcburi assimilyasiyaya aparan iyrənc neokolonializm təcrübəsinin davam etməsi, Gürcüstandakı son proseslər həyəcan təbili çalır. Təbii olaraq qarşıdurmalar dövlətlərdə sabitliyə təsir göstərir, hətta bir çox ölkələr müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzədir. Bu dövlətlərin bir çoxunun liderlərinin və siyasi hakimiyyətlərin yarıtmaz siyasətini, hadisələri qabaqlamaq və onların preventiv üsullarla qarşısını almaq məsələlərində geridə qalmalarını görmək olar.

Şükürlər olsun ki, bu arzuolunmaz geosiyasi arxitektura fonunda Azərbaycanda siyasi sabitlik var. Regionun lider dövləti kimi Azərbaycan daxili sabitliyini əzmlə qoruyub saxlayır və durmadan inkişaf etdirir. Təbii ki, bu sabitliyin qorunmasını şərtləndirən ən mühüm məsələ dövlətin liderinin yürütdüyü siyasətdir.

Son 21 ildə həyata keçirdiyi tam müstəqil siyasətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyev hadisələri düzgün analizetmə, dorğu qərarvermə bacarığı, uğurlu diplomatiyası ilə ölkəmizə qarşı bütün təhdidlərə layiqli cavab verir. "Coğrafiyadan və çətinlikdən şikayətlər üçün bəhanə kimi istifadə edilməməlidir", - deyən İlham Əliyev qətiyyətli siyasəti, prinsipial mövqeyi ilə Azərbaycanı sabitlik adasına çevirib.

→ 8

# Birinci vitse-prezident Mehriban Əliyeva Pasxa bayramı münasibətilə Azərbaycanın xristian icmasını təbrik edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Pasxa bayramı münasibətilə Azərbaycanın xristian icmasını təbrik edib.**

AZƏRTAC xəbər verir ki, Mehriban xanım Əliyeva bununla bağlı sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımda bildirilir: "Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Hamıya möhkəm cansağlığı, xoş duyğular və uzun ömür arzulayıram! Qoy hər bir Azərbaycan vətəndaşının həyatında nurlu, xoşbəxt günlərin sayı çox olsun! Uca Tanrı bu mübarək bayram günlərində edilən bütün duaları qəbul etsin!"

# İlham Əliyevin prezident seçkilərində inamlı qələbəsi Azərbaycan xalqının sonsuz etimadının göstəricisidir

## Bu sözləri Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin Prezident İlham Əliyevin qəbulunda deyib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Rusiya Federasiyası arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilərək, ölkəmizin Rusiyanın ayrı-ayrı regionları, o cümlədən Həştərxan vilayəti ilə həyata keçirdiyi əməkdaşlığın bu işə öz töhfəsini verdiyi vurğulandı.

Azərbaycan Prezidentinin bu yaxınlarda Rusiyaya uğurlu səfəri qeyd olunaraq, bu səfərin əlaqələrimizin daha da möhkəmlənməsini nümayiş etdirdiyi bildirildi. Dövlətimizin başçısı bu səfər çərçivəsində Rusiya Prezidenti ilə birlikdə Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə Moskvada dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə tədbir iştirakçılarının Ulu Öndərin bu layihənin reallaşmasındakı xidmətlərini böyük hörmətlə yad etmələrindən məmnunluğunu bildirərək vurğuladı ki, bu, münasibətlərimizin səmimiliyini nümayiş etdirir və qürur hissi doğurur.

Həştərxan vilayətinin qubernatoru, ilk növbədə, İlham Əliyevi prezident seçkilərində inamlı qələbə münasibətilə təbrik edərək, bunu Azərbaycan xalqının dövlətimizin başçısına sonsuz etimadı kimi dəyərləndirdi.

Prezident İlham Əliyev təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirdi.

→ 2

# Bakı şəhəri dünyanın "İdman Paytaxtı" seçilib

Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyası Bakı şəhərini 2026-cı il üçün dünyanın "İdman Paytaxtı" seçib.




Gənclər və İdman Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, beynəlxalq təşkilatdan ölkəmizə göndərilmiş rəsmi məktubda Bakı şəhərinin bu statusa layiq görüldüyü təsdiqlənib. Azərbaycanda əhalinin sağlamlığının möhkəmləndirilməsi, yüksək standartlara uyğun mövcud idman infrastrukturu və idmanın təbliği üçün görülən nümunəvi fəaliyyət yüksək qiymətləndirilib.

Qeyd edək ki, gələn ilin sonunda Belçikanın Brüssel şəhərində, Avropa Parlamentində Bakı şəhərinin dünyanın "İdman Paytaxtı" olaraq rəsmi təqdimat mərasiminin keçirilməsi planlaşdırılır.

# 40 sərhəd dirəyi quraşdırılıb

## Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin Xidmətinin məlumatı

6 may 2024-cü il

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasındakı sərhəddə koordinatların dəqiqləşdirilməsi işləri çərçivəsində aparılan geodeziya ölçmələri əsasında 2024-cü il mayın 6-dək 40 sərhəd dirəyi quraşdırılıb.

İki dövlətin ekspert qruplarının işi davam edir.



# Bu il "Xarıbülbül" festivalı Şuşa və Laçında keçiriləcək

Mayın 11-13-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalı keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu il 35 yaşını qeyd edən festival Şuşa və Laçın şəhərlərində baş tutacaq.

Qeyd edək ki, Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin noyabrında bununla bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Öz növbəsində, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı da İslam dünyası ölkələri arasında mədəni əlaqələrin inkişafına töhfə verəcək. Builki festival iştirakçıları arasında həm də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer alacaqlar.




Festivalın proqramı iştirak edəcək ifaçıların sənətkarlığı ilə yanaşı, həm də repertuar və fərqli təqdimatlarla yadda qalacaq.

Mayın 11-də Cıdır düzündə "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin və "Xarıbülbül" VII Beynəlxalq Musiqi Festivalının açılış konserti keçiriləcək.

Festival mayın 13-də Laçında davam edəcək. Həkəri çayı ətrafında qonaqlara fərqli ölkələrdən gələn ifaçıların təqdimatında konsert təqdim olunacaq. Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" Musiqi Festivalı 1989-cu ildən keçirilir. Festival həmin ilin may ayında məşhur xanəndə, pedaqoq, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar Ağdam rayonunun Abdal Gülablı kəndində başlayıb, Şuşada davam edib və Ağdamda yekun konsertlə başa çatmışdı. 1990-cı ildən isə "Xarıbülbül" festivalı beynəlxalq status alıb. Qarabağ münaqişəsi dövründə əsas konsertlər Ağdamda təşkil edilib. Festivalın bir sıra konsertləri Bərdə və Ağcabədidə də keçirilib.

Vətən müharibəsindəki tarixi Zəfərimizlə torpaqlarımız işğaldan azad olunduqdan sonra festival yenidən Şuşaya qayıdıb. Bu il isə festivalın məkanı genişlənərək Laçın şəhərini də əhatə edir.

# Slovakiyanın Baş naziri Azərbaycana rəsmi səfərə gəlib

Slovakiya Respublikasının Baş naziri Robert Fitso mayın 6-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazirin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Slovakiyanın Baş naziri Robert Fitsonu hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.



# İlham Əliyevin prezident seçkilərində inamlı qələbəsi Azərbaycan xalqının sonsuz etimadının göstəricisidir

## Bu sözləri Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin Prezident İlham Əliyevin qəbulunda deyib





*Əvvəli 1-ci səh.*

İqor Babuşkin ötən il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Həştərxanda geniş miqyasda bir sıra təntənəli tədbirlərin keçirildiyini deyərək, bununla bağlı hazırlanmış xatirə fotoalbomunu dövlətimizin başçısına təqdim etdi. Prezident İlham Əliyev Həştərxanda Ümummilli Liderin xatirəsinə göstərilən yüksək ehtirama görə minnətdarlığını bildirərək, bunun ölkələrimiz və xalqlarımız arasında dostluğun nümunəsi olduğunu dedi. Həştərxan vilayətinin qubernatoru Xəzəryanı ölkələri əhatə edən və dostluq rəmzi olan "Xəzər - Dostluq dənizi" devizi altında həyata keçirdikləri motoyürüşə Azərbaycan hökumətinin dəstəyinə görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı Heydər Əliyev Fondunun Həştərxanda reallaşdırdığı layihələrin önəminə toxunuldu. Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18; Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1069-VIQD nömrəli və 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 51.2-ci maddəyə "materialları" sözündən sonra "media subyektinə təqdim edilə, yaxud" sözləri əlavə edilsin;

1.2. 55.1.1-ci maddədən "hal şahidlərinə," sözləri çıxarılsın;

1.3. 56-cı maddə üzrə:

1.3.1. 56.1-ci maddədə ", tərcüməçilərin və hal şahidlərinin" sözləri "və tərcüməçilərin" sözləri ilə əvəz edilsin;

1.3.2. 56.2-ci maddədə ", tərcüməçi və hal şahidləri" sözləri "və tərcüməçi" sözləri ilə əvəz edilsin;

1.4. 69-cu maddə ləğv edilsin;

1.5. 92-ci maddə üzrə:

1.5.1. 92.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"92.2. Şəxsi axtarış şəxs inzibati qaydada tutulduqda, barəsində inzibati həbs tənbeh növü tətbiq edildikdə, yaxud inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin şəxsin üzərində və ya bədənində gizlədilməsini güman etməyə kifayət qədər əsaslar olduqda aparılır. Şəxsi axtarış eyni cinsdən olan səlahiyyətli vəzifəli şəxs tərəfindən, bu Məcəllənin 92.2-1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, fasiləsiz videoçəkiliş aparılmaqla həyata keçirilir.";

1.5.2. aşağıdakı məzmunda 92.2-1-ci maddə əlavə edilsin:

"92.2-1. İnzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin şəxsin bədənində gizlədilməsini güman etməyə kifayət qədər əsaslar olduqda şəxsi axtarış şəxsin soyundurulması ilə həyata keçirilə bilər. Bu halda videoçəkilişdən istifadəyə yol verilmir və barəsində şəxsi axtarış aparılan şəxsin bədən üzvləri eyni cinsdən olan tibb işçisi tərəfindən, təcrid olunmuş yerdə yoxlanılır. Tibb işçisi onun iştirakı ilə həyata keçirilən bu prosessual hərəkətin məzmununu və nəticəsini protokolda öz imzası ilə təsdiq edir və olduğu halda öz qeydlərini protokola daxil edir. Həmin şəxs bu Məcəllənin 67-ci maddəsinə uyğun olaraq şahid kimi sorğu-sual edilə bilər.";

1.5.3. 92.3-cü maddə üzrə:

1.5.3.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Əşyaların (əl yükü, baqaj, ov və balıq ovu alətləri, əldə edilmiş məhsul və sair) yoxlanılması fasiləsiz videoçəkiliş aparılmaqla həmin əşyaların mülkiyyətçilərinin və ya sahiblərinin iştirakı ilə həyata keçirilir.";

1.5.3.2. ikinci cümlədə "iki hal şahidinin iştirakı ilə" sözləri "fasiləsiz videoçəkiliş aparılmaqla" sözləri ilə əvəz edilsin;

1.5.4. aşağıdakı məzmunda 92.5-1-ci maddə əlavə edilsin:

"92.5-1. Şəxsi axtarış (bu Məcəllənin 92.2-1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla) və əşyaları yoxlama haqqında protokolda fasiləsiz videoçəkilişdən istifadə barədə müvafiq qeyd aparılır və videoçəkilişi əks etdirən məlumat daşıyıcısı həmin protokola əlavə olunur.";

1.5.5. 92.6-cı maddənin birinci cümləsində "hal şahidləri" sözləri "bu Məcəllənin 92.2-1-ci maddəsində nəzərdə tutulmuş halda həmin prosessual hərəkətdə iştirak edən tibb işçisi" sözləri ilə əvəz edilsin;

1.6. 93-cü maddə üzrə:

1.6.1. 93.2-ci maddə üzrə:

1.6.1.1. birinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Nəqliyyat vasitəsinə baxış fasiləsiz videoçəkiliş aparılmaqla nəqliyyat vasitəsi sahibinin iştirakı ilə həyata keçirilir.";

1.6.1.2. ikinci cümlədə "videoyazı" sözü "fasiləsiz videoçəkiliş" sözləri ilə əvəz edilsin;

1.6.2. aşağıdakı məzmunda 93.3-1-ci maddə əlavə edilsin:

"93.3-1. Nəqliyyat vasitəsinə baxış haqqında protokolda fasiləsiz videoçəkilişdən istifadə barədə müvafiq qeyd aparılır və videoçəkilişi əks etdirən məlumat daşıyıcısı həmin protokola əlavə edilir.";

1.6.3. 93.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

"93.4. Maddi sübutların qeydə alınması məqsədilə onların fotoşəkilləri də çəkilə bilər. Bu halda nəqliyyat vasitəsinə baxış haqqında protokolda fotoçəkilişdən də istifadə edilməsi barədə müvafiq qeyd aparılır və fotoçəkilişdən istifadə nəticəsində əldə edilmiş məlumat daşıyıcıları protokola əlavə olunur.";

1.6.4. 93.5-ci maddənin birinci cümləsindən ", habelə hal şahidləri" sözləri çıxarılsın;

1.7. 94-cü maddə üzrə:

1.7.1. 94.1-ci maddədə "iki hal şahidinin iştirakı ilə" sözləri "fasiləsiz videoçəkiliş aparılmaqla" sözləri ilə əvəz edilsin;

1.7.2. aşağıdakı məzmunda 94.4-1-ci maddə əlavə edilsin:

"94.4-1. Əşyaların və sənədlərin götürülməsi haqqında protokolda fasiləsiz videoçəkilişdən istifadə barədə müvafiq qeyd aparılır və videoçəkilişi əks etdirən məlumat daşıyıcısı həmin protokola əlavə edilir.";

1.7.3. 94.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"94.5. Əşyaların və sənədlərin götürülməsi zamanı onların fotoşəkilləri də çəkilə bilər. Bu halda əşyaların və sənədlərin götürülməsi haqqında protokolda fotoçəkilişdən də istifadə edilməsi barədə müvafiq qeyd aparılır və fotoçəkilişdən istifadə nəticəsində əldə edilmiş məlumat daşıyıcıları protokola əlavə olunur.";

1.7.4. 94.6-cı maddənin birinci cümləsindən ", habelə hal şahidləri" sözləri çıxarılsın;

1.8. 109.1.2-ci maddədə "69" rəqəmləri "70" rəqəmləri ilə əvəz edilsin;

1.9. 376-cı maddə üzrə:

1.9.1. adına "qanunsuz" sözündən sonra "olaraq media subyektinə təqdim edilməsi, yaxud" sözləri əlavə edilsin;

1.9.2. dispozisiyasına "materiallarının" sözündən sonra "media subyektinə təqdim edilməsinə, yaxud" sözləri əlavə edilsin.

**Maddə 2. Keçid müddəa**

Bu Qanun 2024-cü il iyunun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2024-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il martın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında ümumvətəndaş pasportlara malik şəxslər üçün viza tələbinin qarşılıqlı aradan qaldırılması haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2024-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında iqtisadi əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il martın 1-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Albaniya Respublikası Nazirlər Şurası arasında iqtisadi əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Albaniya Respublikası Nazirlər Şurasına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 may 2024-cü il*

## DTX əməkdaşları "Heydər zirvəsi"nə yürüş təşkil ediblər






Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) bir qrup əməkdaşı tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Ulu Öndərin adını daşıyan, Böyük Qafqaz sıra dağlarının Başdağ silsiləsinin dəniz səviyyəsindən 3751 metr hündürlükdə yerləşən "Heydər zirvəsi"nə ənənəvi yürüş təşkil olunub.

Bu barədə DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib. Qeyd olunub ki, yürüş iştirakçıları mürəkkəb relyef və sərt iqlim şəraitində qabaqcadan müəyyənləşdirilmiş marşrut üzrə hərəkətlərini davam etdirərək təyin olunmuş vaxtda "Heydər zirvəsi"nə qalxıb, Ümummilli Liderin barelyefi önündə dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad etdikdən sonra orada Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb, DTX-nin adı və emblemi əks olunan plakatı yerləşdiriblər.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 243 **QƏRAR** Bakı şəhəri, 3 may 2024-cü il

### “Daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi Qaydası”nın təsdiq edilməsi haqqında

"Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 yanvar tarixli 2455 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi Qaydası" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 244 **QƏRAR** Bakı şəhəri, 3 may 2024-cü il

### “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 21 noyabr tarixli 1022-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 25 dekabr tarixli 2422 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 16 noyabr tarixli 260 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1199 (Cild I) ilə təsdiq edilmiş "Miqrasiya orqanları işçilərinin fasiləsiz qulluq illərinin və bununla əlaqədar onlara verilən əlavələrin hesablanması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.2-ci yarımbəndə "stajorluq" sözündən sonra "(olduğu halda)" sözləri əlavə edilsin;

1.2. 2.2.1-ci yarımbənd ləğv edilsin;

1.3. 2.2.2-ci yarımbənddə "digər hüquq mühafizə və fövqəladə hallar orqanlarının sıravi və rəis heyəti vəzifələrində" sözləri "digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 noyabr tarixli 492 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2156 (Cild I) ilə təsdiq edilmiş "Miqrasiya orqanları işçilərinin attestasiyası Qaydası"nın 1.4-cü, 4.11-ci və 4.12-ci bəndləri ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 245 **QƏRAR** Bakı şəhəri, 3 may 2024-cü il

### “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1048-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 23 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 2, maddə 126 (Cild I); 2024, № 1, maddə 122) ilə təsdiq edilmiş "Artıq ödənilmiş vergilərin, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarının, faizlərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə, 1.2.3-1.2.6-cı yarımbəndlərdə, 2.1-2.2-1-ci, 2.7-ci, 3.4-cü, 4.1-ci bəndlərdə, 4.1.3-1-ci yarımbənddə, 4.2-ci, 4.3-cü, 4.3-1-ci bəndlərdə "bank" sözü "ödəniş" sözü ilə əvəz edilsin;

1.2. Qaydalara 1, 2 və 3 nömrəli əlavələrdə "Bank" sözü "Ödəniş hesabının" sözləri ilə əvəz edilsin və "bank" sözündən sonra "və ya digər ödəniş" sözləri əlavə edilsin;

1.3. Qaydalara 1, 2, 3, 4 və 5 nömrəli əlavələrə "bankın" sözündən sonra "və digər ödəniş xidməti təchizatçısının" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 62 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 22 aprel tarixli 221 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması Qaydası"nın 4.5.5-ci yarımbəndinə, 4.10.7-ci yarımbəndinin 5-ci abzasına (hər iki halda) "bank" sözündən sonra "və digər ödəniş" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 246 **QƏRAR** Bakı şəhəri, 6 may 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli 97 nömrəli Qərarı ilə təsdiq edilmiş “Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları”nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1073-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 474 (Cild I) ilə təsdiq edilmiş "Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları"nın 5.1-ci bəndində "İctimai" sözü "Dövlət sirri haqqında" və "Kommersiya sirri haqqında" Azərbaycan Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla, ictimai" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan-ATƏT ikitərəfli əməkdaşlıq gündəliyinin əsas istiqamətləri müzakirə olunub

Mayın 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Malta Respublikasının xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan sədri Yan Borq arasında telefon danışığı aparılıb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı ATƏT gündəliyində duran məsələlər, eləcə də regional vəziyyət müzakirə edilib.

Azərbaycan-ATƏT ikitərəfli əməkdaşlıq gündəliyinin əsas istiqamətləri, hazırda ATƏT-in üzləşdiyi çağırışlar barədə ölkəmizin mövqeyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi, ölkəmizin məsələlərə yanaşması barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Bununla yanaşı, ölkəmizin evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində ATƏT və sədrlik ilə mümkün əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İnformasiya təhlükəsizliyinin möhkəmləndirilməsi ən mühüm vəzifələrdən biridir

Mayın 6-da Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi ilə İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının görüşü keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbiri giriş nitqi ilə açan komitə sədri Ziyafət Əsgərov iclasın keçirilməsi üçün göstərilən dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkür edib. Komitə sədri Prezident İlham Əliyevin cari ilin 14 fevral tarixində keçirilmiş andiçmə mərasimində söylədiyi nitqə diqqəti çəkərək qeyd edib ki, ölkə Prezidentinin çıxışında səsləndirilmiş "Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi - bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar. Əks təqdirdə, biz geridə qalacağıq" fikirləri konseptual xarakter daşıyır, bu sahənin mühüm əhəmiyyətini vurğulamaqla yanaşı, qarşıya mühüm vəzifə və hədəflər qoyur.

Bildirilib ki, bu gün dünyada gedən texnoloji inkişaf Azərbaycanda da öz təsirini bütün sahələrdə göstərməkdədir. Lakin, yeni texnologiyaların yaratdığı imkanlar özü ilə yeni təhdidlər də gətirir. Bu təhdidlər milli təhlükəsizlik baxımından aidiyyəti qurumlar tərəfindən ciddi nəzarətdə saxlanılır və lazımi tədbirlər görülür. Təsadüfi deyildir ki, informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında ən mühüm və uzunmüddətli vəzifələrdən biri kimi bəyan edilmişdir.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) rəisi, İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının sədri İlqar Musayev çıxışında görüşün keçirilməsi üçün yaradılan şəraitə görə parlament rəhbərliyinə təşəkkürünü bildirib.

Ölkəmizdə informasiya texnologiyaları və kibertəhlükəsizlik sahəsində görülən işlər barədə geniş məlumat verən xidmətin rəisi vurğulayıb ki, bu gün Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsindəki fəaliyyət Ümummilli Lider Heydər Əliyevin böyük uzaqgörənliklə müəyyənləşdirdiyi strateji xətt üzrə uğurla davam etdirilir. İnformasiya texnologiyalarının əhəmiyyəti və onlardan geniş istifadənin zəruriliyi hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir.

Qeyd olunub ki, hazırda yeni texnologiyaların tətbiqi, sürətli internet xidmətlərinin əlçatanlığı, bu sahədə ölkəmizdə və dünyada uğurla tətbiq edilən yeniliklərlə yanaşı, özü ilə birlikdə bir sıra problemləri və riskləri də gətirməkdədir.

Daha sonra iclasda XRİTDX-nin idarə rəisi Tural Məmmədov "İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində ölkəmizdə mövcud vəziyyət: Görülmüş işlər - problemlər" mövzusunda, şöbə rəisi Elgin Abdullayev "İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində yeni reallıqlar qanunvericilik aktlarında: Beynəlxalq təcrübə və ölkəmizdə mövcud vəziyyət" mövzusunda təqdimatlarla çıxış ediblər.

Müzakirələrdə deputatlar Aydın Mirzəzadə, Elman Məmmədov və Arzu Nağıyev görüşün əhəmiyyətini qeyd ediblər, təqdimatlarla bağlı fikir və təkliflərini səsləndiriblər.

Sonra görüş qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi ilə davam etdirilib, deputatları maraqlandıran məsələlərə münasibət bildirilib.

Görüşdən sonra İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının növbəti iclası keçirilib.

*"Azərbaycan"*

# Azərbaycanın evsahibliyi edəcəyi COP29 qlobal sülhə də töhfə verəcək

Avropada iqlim sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyətinin və "beyin mərkəzləri"nin aparıcı nümayəndələrinin iştirakı ilə Almaniyanın Bonn şəhərində keçirilən "COP29 və sonrası - sülh, təhlükəsizlik və iqlim dəyişikliyi" mövzusunda dialoq formatlı konfrans işini başa çatdırıb.



AZƏRTAC xəbər verir ki, konfransda sülh, təhlükəsizlik və iqlim dəyişikliyi problemlərinin konkret klasterləri olan su ehtiyatlarının azalmasına qarşı tədbirlər, qida təhlükəsizliyinin gücləndirilməsi, iqlim dəyişikliyi və minaların ikili təsirlərindən əziyyət çəkən əhaliyə dəstək mövzularında müzakirələr aparılıb.

COP29 sədrliyinin nümayəndəsi kimi konfransda yekun məruzə ilə çıxış edən Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov qeyd edib ki, qlobal iqlim dəyişikliyi və beynəlxalq sülhə aid məsələlər bir-biri ilə sıx bağlıdır və qarşılıqlı təsirə malikdir.

"Getdikcə daha çox dəlillər göstərir ki, müharibələr və münaqişələr, eləcə də onların nəticələri - biomüxtəlifliyin məhv edilməsi, zərərli maddələrin emissiyası, minalarla çirklənmə təkcə ətraf mühiti çirkləndirmir, həm də bəşəriyyəti iqlim dəyişikliyinin geri dönüşü olmayan qırmızı xəttinə daha da yaxınlaşdırır", - deyən E.İskəndərov bu il Azərbaycanın evsahibliyi edəcəyi COP29-un bu təhlükələrin müzakirəsi və konkret həll yollarının tapılması üçün mühüm imkan olduğunu bildirib.

Səfir xüsusi vurğulayıb ki, Azərbaycanın COP29-a evsahibliyinə yekdilliklə seçilməsi dünya birliyinin ölkəmizin siyasi iradəsinə və hamının maraqlarını nəzərə alaraq qlobal problemlərin həllinə töhfə vermək qabiliyyətinə etimadının sübutudur. Azərbaycan "Sülh, təhlükəsizlik və iqlim dəyişikliyi" məsələləri kompleksinin vətəndaş cəmiyyəti nümayəndələrinin və ekspertlərin də iştirakı ilə geniş müzakirəsi üçün imkanlar yaratmağa sadiqdir və bu sahədə konkret təkliflərə açıqdır.

Azərbaycanın sədrliyi ilə bağlı son bir ayda beynəlxalq QHT nümayəndələri ilə görüşlərin keçirildiyini diqqətə çatdıran diplomat bunun ölkəmizin COP29-un inklüzivliyi ilə əlaqədar bəyan etdiyi prinsipi həm də gerçəkləşdirməkdə israrlı olmasının göstəricisi kimi qiymətləndirib.

# Hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin təkmilləşdirilməsi məqsədilə müxtəlif tapşırıqlar icra ediləcək

Müdafiə Nazirliyinin 2024-cü il üçün hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə bir qrup hərbi vəzifəlilərlə keçirilən təlim toplanışı davam edir.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, toplanış məntəqəsinin qərargahında müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçən hərbi vəzifəlilər hərbi geyim, həmçinin digər təminat növləri ilə təmin olunurlar. Hərbi vəzifəlilərlə maarifləndirici söhbətlər aparılır, onlara təhlükəsizlik qaydaları çatdırılır, eləcə də sıra hazırlığı üzrə məşğələlər keçirilir.

Təlim toplanışı çərçivəsində plana uyğun olaraq, hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin, bilik və bacarıqlarının artırılması, təlim sahəsində praktiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə müxtəlif tapşırıqlar icra ediləcək.

# Heydər Əliyev Fondunun 20 illiyinə həsr olunmuş konsert proqramı təqdim edilib

Mayın 4-də Heydər Əliyev Mərkəzində "20 ilin sədası" adlı konsert proqramı təqdim olunub. Konsert fondun yaradılmasının 20 illiyinə həsr edilib.






AZƏRTAC xəbər verir ki, konserti Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, Milli Məclisin deputatları və digər qonaqlar izləyiblər.

Konsert proqramı Heydər Əliyev Fondunun fəaliyyətinə, mədəniyyət sahəsində gördüyü işlərə dair videoçarxın nümayişi ilə başlayıb.

Videoçarxda diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondu 2004-cü ildə Ulu Öndərin siyasətini əks etdirmək, yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq niyyətindən irəli gələrək yaradılıb. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond 20 il ərzində saysız-hesabsız uğurlara nail olub, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə ciddi islahatların aparılmasına töhfəsini verib. Heydər Əliyev Fondu, həmçinin ölkəmizin dünyada təbliği və zəngin dəyərlərimizin tanıdılması istiqamətində yorulmaz fəaliyyət göstərib.








Fondun yubiley konserti həm iştirakçıları, həm də repertuarı ilə rəmzi məna daşıyıb. Belə ki, bu il yaranmasının 20 ili tamam olan Heydər Əliyev Fondu fəaliyyəti dövründə hər zaman gənc istedadlara, mədəniyyət və incəsənət sahəsinin inkişafına dəstək göstərib, mədəniyyətimizin geniş təbliğinə yönələn layihələr həyata keçirib.

Heydər Əliyev Fondu istər gənclərimizin təhsil almasına, istərsə də beynəlxalq müsabiqə və festivallarda iştirakına dəstək olub. Fondun ayrı-ayrı sahələrdəki layihələri, o cümlədən muğam müsabiqələri, milli, klassik və caz musiqisi ilə bağlı layihələri, müxtəlif musiqi festivalları yeni istedadların üzə çıxarılmasına, onların inkişafına təkan verib.

Bu konsert proqramında da məhz həmin incəsənət xadimləri, - yaradıcılıqlarında Heydər Əliyev Fondunun iz qoyduğu, dönüş və sıçrayış yaratdığı, dəstək göstərdiyi






mədəniyyət və incəsənət xadimləri, - Azər Zadə (tenor), Azər Zeynalov (tenor), Ceyla Seyidova (violin), Elçin Əzizov (bariton), Emil Əfrasiyab (piano), Elvin Hoca Qəniyev (violin), Fərhad Bədəlbəyli (piano), İsfar Sarabski (piano), Mirələm Mirələmov (xanəndə), Murad Adıgözəlzadə (piano), Samir Cəfərov (tenor), Təyyar Bayramov (xanəndə) və digərləri çıxış ediblər.

Hər bir ifaçının çıxışından əvvəl onların Azərbaycan mədəniyyətinin hamisi olan Heydər Əliyev Fonduna təbriklərini əks etdirən qısa videomaterial təqdim olunub.

Konsertdə ifaçıları Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (dirijorlar- Xalq artisti Yalçın Adıgözəlov, Əməkdar artist Fuad İbrahimov, Mustafa Mehmandarov) müşayiət edib.

Azərbaycan Dövlət Xor Kapellasının (bədii rəhbər respublikanın Xalq artisti Gülbacı İmanova) və Azərbaycan Dövlət Uşaq Filarmoniyasının Xor kollektivinin (bədii rəhbər Dilarə Əliyeva) iştirakı da konsertə xüsusi rəng qatıb.

Gecədə Azərbaycan və dünya bəstəkarlarının əsərləri ilə yanaşı, xalq mahnılarımız, təsnif və muğamlarımız, eləcə də bir sıra filmlərimizə yazılmış bənzərsiz musiqi əsərləri səsləndirilib.

Böyük peşəkarlıqla hazırlanmış konsert proqramı bir daha göstərdi ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 20 illik fəaliyyətində Ulu Öndər Heydər Əliyevin ideyalarına əsaslanan, elm və təhsil, səhiyyə, sosial və digər sahələrdəki önəmli layihələri ilə mühüm nailiyyətlərə imza atan, ən əsası isə insanların sevgi və inamını qazanan Heydər Əliyev Fondunun gördüyü işlərdə milli-mədəni, mənəvi dəyərlərimizin qorunub saxlanılması, onların təbliği xüsusi önəm kəsb edir. Heydər Əliyev Fondu ötən illərdə mədəniyyət sahəsinin inkişafına öz töhfələrini verib və fondun 20 illiyi ərəfəsində keçirilən konsert də həmin uğurların kiçik bir hissəsinin nümayişi sayıla bilər.

Fəaliyyətində hər zaman Qarabağa xüsusi həssaslıqla yanaşan fondun möhtəşəm yubiley konsertinə "Qarabağ" şikəstəsinin səslənməsi ilə yekun vurulub.

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən "Bakı marafonu 2024" başa çatıb






Mayın 5-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Bakı marafonu 2024" keçirilib.









AZƏRTAC xəbər verir ki, "Küləyə qalib gəl" şüarı ilə keçirilən yarışa 18 mindən çox iştirakçı qatılıb. Marafona Azərbaycan vətəndaşları ilə yanaşı, ölkədə yaşayıb-çalışan əcnəbilər - Almaniya, Çin, Fransa, Gürcüstan, Hindistan, İraq, İran, İtaliya, Kanada, Qazaxıstan, Pakistan, Rusiya, Suriya, Türkiyə, Ukrayna və digər ölkələrin vətəndaşları da qoşulublar. Artıq 7-ci dəfədir təşkil olunan Bakı marafonu insanları böyük coşqu ilə ətrafına toplayır. Hər il olduğu kimi, bu il də Bakı marafonunun fəxri iştirakçıları var. Ayrı-ayrı sahələrdən 200-dən çox şəxs fəxri iştirakçı kimi yarışıb.

Qeyd edək ki, 2016-cı ildən 21 kilometr məsafədə təşkil olunan Bakı marafonu idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək məqsədi daşıyır. Hər il iştirakçıların sayının artması yarışa marağın göstəricisidir. Xüsusi qayğıya ehtiyacı olan şəxslər builki marafonda da iştirak ediblər.

Marafona səhər saat 10-da start verilsə də, saat 7-dən etibarən Bayraq Meydanında yarış əhvali-ruhiyyəsi yaşanıb. Burada təşkil olunan atletlər zonasında iştirakçılar üçün yarışdan əvvəl pilates, fitnes, yoqa, isinmə, boks, zumba, kardio üzrə məşqlər keçirilib. Yarış zonasında marafonu dəstəkləyənlər üçün isə əyləncə dolu "fan zona" - musiqi, DJ-lər, əyləncə proqramları təşkil edilib.

Yarışın start və finiş nöqtələri Dövlət Bayrağı Meydanında olub. Marafonun marşrutu Dənizkənarı Bulvarı, o cümlədən paytaxtın mərkəzi küçə və prospektlərini əhatə edib.







Küləkli hava şəraitində aparılan maraqlı idman mübarizəsinin sonunda qaliblər müəyyənləşib. Qadınların yarışında ukraynalı Nataliya Semenoviç birinci olub. Xatırladaq ki, Nataliya Semenoviç "Bakı marafonu 2023"ün də qalibi olub. Azərbaycan təmsilçisi Anna Yusupova marafonu ikinci, qazaxıstanlı Nelli Qaitova üçüncü pillədə başa vurublar.

Kişilərin mübarizəsində türkiyəli Ahmet Alkanoğlu finişə hamıdan tez çatıb. İkinci yeri ukraynalı Boqdan Semenoviç, üçüncü yeri uqandalı İsmail Senyange tutublar. İlk üç yerin sahiblərinə müvafiq olaraq, 3000, 2000 və 1000 manat pul mükafatları, medal və diplomlar təqdim edilib.

Qeyd edək ki, marafonun əhatə etdiyi marşrut boyu DJ-lər, könüllülərdən ibarət əyləncə komandaları marafonçuları qarşılayıb, xüsusi könüllü qrupları iştirakçıların marşrut boyu istiqamətləndirilməsinə kömək ediblər. 21 kilometrlik yolda maskotlar, su, nəqliyyat və tibb məntəqələri də təşkil olunub.

"Bakı marafonu 2024"ün eksklüziv tərəfdaşı "Azercell Telekom" şirkətidir. Layihənin icrasını isə "Sport Marketing Group" (SMG) şirkəti həyata keçirir.

Marafon Elm və Təhsil Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, SOCAR, Dənizkənarı Bulvar İdarəsi və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB), "Azərlotereya" ASC, "Skechers", "GAC Motors", "Push30", Badamlı, "Liv Bona Dea Hospital", "Carlsberg Group"un dəstəyi ilə təşkil olunub.

Marafonun əyləncə zonasının təşkilinə Xəzər Media Mərkəzi, o cümlədən könüllü proqramının təşkilinə "ASAN Könüllüləri" dəstək göstəriblər.

**1923** *Azərbaycanın özü qədər əbədi* **2024**



# Müasir dövlətçilik təfəkkürünün mücəssəməsi

**Hər dəfə Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin həyat və fəaliyyətinə nəzər saldıqca onun siyasi portretinin üzə çıxan yeni səciyyəvi ştrixləri Ulu Öndərin demokratik hüquqi dövlət quruculuğu sahəsində oynadığı müstəsna rolu daha dolğun və obyektiv şəkildə dəyərləndirməyə imkan verir. Belə ki, Azərbaycanda dövlət və dövlətçilik anlayışlarının əsl mahiyyəti cəmiyyət tərəfindən, ilk növbədə, Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi hər iki dönəmdəki fəaliyyəti sayəsində dərk olunmuşdur.**

Ölkə ictimaiyyəti Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünü onun əziz xatirəsinə mənəvi hesabat olaraq daha əlamətdar bir dövrdə və böyük ruh yüksəkliyi ilə qarşılayır: bu gün Azərbaycan Respublikası heç bir zaman olmadığı kimi güclü və müstəqildir, onun artıq bütövləşmiş ərazisində xalqın suveren hüquqları etibarlı şəkildə təmin olunur və yüksələn xətlə inkişaf edir.

Heydər Əliyevin dövlətçilik siyasətinin ana xəttini həyatın bütün sahələrini əhatə edən geniş şaxəli fəaliyyət istiqamətlərinə uyğun olaraq milli mənəviyyatın formalaşması, tarixi soy-kökə qayıdış və azərbaycançılıq prinsipləri təşkil etmişdir. Ciddi işgüzar keyfiyyətlər tələb edən fenomenal iş üslubu onun hələ Sovetlər Birliyi dövründən bəri topladığı zəngin idarəçilik təcrübəsinə söykənirdi.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi birinci dövr - 1969-1982-ci illər müasir Azərbaycanın inkişaf tarixinə əsl dövlətçiliyin, dövlət müstəqilliyinin konturlarının cızıldığı ilk dönüş mərhələsi kimi yazılmışdır. Həmin illərdə müəyyənləşmiş fundamental strateji istiqamətlər sonrakı dövrlərin sosial-iqtisadi inkişafı üçün zəngin baza rolunu oynadı. Ümummilli Lider keçmiş SSRİ miqyasında Azərbaycanı ən geridə qalmış müttəfiq respublikadan mərkəzdən iqtisadi asılılığı olmayan öncüllər sırasına çıxarmağa nail olmuşdu. Ölkəmizdə nəhəng sənaye müəssisələrinin tikilməsi, hərbi məktəblərin açılması, bütün sahələr üzrə yüksəkixtisaslı milli kadrların hazırlanması, respublikanın misli görünməyən iqtisadi dirçəlişi məhz Ulu Öndərin adı ilə bağlıdır. Azərbaycanda o dövrə qədərki vaxtda mövcud olan neqativ meyillərin təhlili, cəmiyyətimizdəki rüşvətxorluq, korrupsiya hallarının etiraf olunması sağlam və mütərəqqi milli təfəkkürün formalaşmasına əvəzsiz töhfə vermiş və ittifaq miqyasında böyük əks-sədaya səbəb olmuşdu.

Sonrakı mərhələdə SSRİ-nin ali hakimiyyət orqanlarında mühüm siyasi postlarda Siyasi Büronun üzvü və Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində çalışdığı zaman Heydər Əliyev Sovet İttifaqı kimi nəhəng bir ölkənin çox mühüm strateji sahələrinə rəhbərlik etmişdi. Buraya sosialist düşərgəsi ölkələri ilə əlaqələr, Yaxın Şərq problemlərinin həlli məsələləri, Uzaq Şərq, Mərkəzi və Cənub-Şərqi Asiya, Latın Amerikası ölkələri ilə qarşılıqlı münasibətlər kimi geniş spektrli problemlərin idarə edilməsi daxil idi. İqtisadiyyatın ən çətin sahələrindən sayılan ağır və yüngül sənaye, dəmir yolu, nəqliyyat, tikinti, habelə səhiyyə, təhsil, gənclərlə işlə bağlı mühüm məsələlərin bilavasitə Heydər Əliyevə həvalə olunması onun heyrətamiz liderlik, idarəçilik, təşkilatçılıq qabiliyyətinə və dövlətçilik təfəkkürünə inamdan irəli gəlirdi. "Heydər Əliyev İli"nin MDB məkanında dövlətlər səviyyəsində böyük təntənə ilə qeyd edilməsi, adının əbədiləşdirilməsi, ötən ay Moskvada Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyi münasibətilə keçirilən tədbirdə XX əsrin ən nəhəng layihəsinin ərsəyə gəlməsində Heydər Əliyevin müstəsna rolunun qeyd olunması, keçmiş sovet xalqlarının Ulu Öndərin xatirəsinə göstərdikləri dərin ehtiramın ifadəsidir.

Heydər Əliyev hər zaman olduğu kimi, Kremldəki uğurlu fəaliyyəti ilə həm də öz xalqına, amallarına və prinsiplərinə sədaqətini, dünya miqyasında yüksək nüfuzunu qoruyub saxlamağa müvəffəq olmuşdur. O, buradakı yüksək mövqeyindən məharətlə istifadə edərək respublikamızda xalq təsərrüfatının inkişafını təmin etmək üçün Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin mühüm qərarlarının qəbul edilməsinə nail olmuş və Azərbaycanın mərkəzi büdcədən asılılığını minimuma endirərək, demək olar ki, müstəqil fəaliyyətini təmin etmişdir. Yuxarıda göstərilən tarixi reallıqlar Heydər Əliyevin gəldiyi nəticənin də inkarolunmaz həqiqət olduğunu bir daha sübut edir: *"Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır"*.

Təəssüf ki, Heydər Əliyevdən sonra Azərbaycana rəhbərlik etmiş şəxslərin kölə psixologiyası, prinsipsizliyi, qətiyyətsizliyi və düşünülməmiş kor-koranə addımları respublikanı getdikcə tənəzzülə doğru apardı. Xüsusilə, Kremlin əlaltısına çevrilmiş və dövlətçilik anlayışından bixəbər Əbdürrəhman Vəzirovun rəhbərliyi dövründə Azərbaycan dərin iqtisadi və siyasi böhrana yuvarlanmışdı. Bu fonda cəmiyyət tərəfindən Heydər Əliyev fenomeni ölkəmizi həmişə daxili və xarici təhdidlərdən mühafizə edə biləcək əsas amil kimi dəyərləndirilirdi. Ona görə də 1987-ci ildə respublikada başlayan və müstəqillik çağırışları ilə müşayiət olunan xalq hərəkatı həm də həmin dövrdə bütün siyasi və inzibati postlardan uzaqlaşdırılmış Heydər Əliyevə qarşı sərgilənən ədalətsiz münasibətə kəskin etirazın təzahürü kimi səciyyəvidir. Bu fonda yaranmış vəziyyəti fürsət bilən ittifaqın ermənipərəst rəhbərləri keçmiş Dağlıq Qarabağda separatçı hərəkətlərə rəvac verdilər. Bu, həm də 1988-ci ildə 300 minədək soydaşımızın Ermənistandan kütləvi deportasiyası ilə nəticələndi.

Sonrakı hadisələrin gedişi onu deməyə əsas verir ki, məhz bu hadisələr o dövrdə Azərbaycanın milli azadlıq hərəkatına təkan verən əsas amillərdən biri olmuşdur. AXC-Müsavat cütlüyü isə antimilli və xəyanətkar mövqeyi ilə bu hərəkata yamaq kimi qoşularaq hakimiyyəti ələ keçirmək üçün hər cür çirkin oyunlara gedirdi. Çox keçmədi ki, Azərbaycanda dərinləşməkdə olan ictimai-siyasi böhran, hakimiyyətdə olan Ayaz Mütəllibovun qorxaqlığı və həmçinin "cəbhəçi"lərin təxribat xarakterli davranışları Sovet qoşunlarının Bakıya yeridilməsi və 1990-cı il qanlı 20 Yanvar faciəsi ilə nəticələndi. Bu hadisəyə ilk olaraq kəskin etirazını bildirən, ən cəsarətli və obyektiv siyasi qiyməti verən də məhz Heydər Əliyev oldu. O, əsl liderə məxsus mövqeyini ortaya qoyaraq həyatı üçün real təhlükələrdən çəkinmədən Moskvadakı Azərbaycan nümayəndəliyindən beynəlxalq aləmə tarixi bəyanat ünvanladı. Bu çıxışdan ruhlanmış Azərbaycan xalqının milli azadlıq hərəkatı daha geniş vüsət aldı. Bu gün Azərbaycan cəmiyyəti birmənalı olaraq o fikirdədir ki, əgər həmin dövrdə Heydər Əliyev Azərbaycanın rəhbərliyində olsaydı, nə Qarabağ işğal olunardı, nə də ki ölkəmiz müstəqilliyinin ilk illərində iqtisadi və siyasi böhran yaşayardı. Təəssüf ki, biz bu tarixi şansdan yararlana bilmədik və onun acı nəticələrini gördük.

Əslində, o zaman Azərbaycan xalqı öz nicatını məhz Heydər Əliyevdə görürdü. Amma, təəssüf ki, o zaman onun Moskvadan Azərbaycana gəlməsinə həm mərkəzi hakimiyyət, həm də iqtidarda olan milli xəyanətkarlar hər vəchlə mane olurdular. Ona görə 1990-cı ilin iyulunda gizli yollarla Bakıya gələn Heydər Əliyev iki gündən sonra Naxçıvana getdi. Həmin il noyabrın 17-də muxtar respublikanın Ali Məclisinin sədri seçildikdən sonra siyasi fəaliyyətini orada davam etdirməyə, faktiki olaraq blokada vəziyyətinə düşmüş Naxçıvanın ağır problemləri ilə məşğul olmağa başladı. Məhz həmin illərdə yaranan ekstremal vəziyyətlərdə Heydər Əliyev əsl dövlət adamı, lider kimi fövqəladə keyfiyyətlərini nümayiş etdirdi. O, yüksək səviyyəli dövlətçilik və idarəçilik nümunələri ilə böyük dövlətlərin diqqətini bölgənin problemlərinə cəlb etməyə nail oldu.

Lakin bu istiqamətdə həlledici proseslər 1990-1991-ci illərdə cərəyan etməyə başladı. İqtidarın və Xalq Cəbhəsinin başı hakimiyyət uğrunda mübarizəyə qarışdığı həmin dövrdə Heydər Əliyev Naxçıvandan Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsinə rəhbərlik edirdi. Ulu Öndərin müdrik, uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "Sovet Sosialist" sözləri çıxarıldı, 1990-cı il noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edildi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırıldı.

1991-ci ilin avqustunda Moskvada dövlət çevrilişinə cəhddən sonra SSRİ-nin parçalanması prosesi daha da gücləndi. Müttəfiq respublikalar bir-birinin ardınca öz suverenliklərini elan etdilər. Bu proses Azərbaycanda hərbi-siyasi vəziyyətin daha da mürəkkəbləşməsinə yol açdı. Ulu Öndər Naxçıvan əhalisini və potensialını öz ətrafında birləşdirərək dövlətçilik təcrübəsini yenidən ortaya qoydu və Naxçıvana qarşı istiqamətlənmiş erməni təcavüzünün genişlənməsinin qarşısını almağa müvəffəq oldu. Azərbaycan iqtidarının yanlış siyasəti nəticəsində qardaş Türkiyə ilə soyumuş münasibətləri müsbət məcraya yönəltməklə muxtar respublikanı ağır iqtisadi blokadadan çıxarmaq mümkün oldu. Ermənistanın işğalçılıq siyasəti Heydər Əliyevin Naxçıvandan atdığı çevik diplomatik addımlar sayəsində beynəlxalq aləmdə kifayət qədər qınandı və qarşı tərəfi öz davranışlarına məsuliyyətlə yanaşmağa sövq etdi. Bu, Ermənistan-Azərbaycan münaqişəsi tarixində ilk nümunə idi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasının ilk illəri Heydər Əliyevin timsalında mətanət və siyasi iradənin bənzərsiz nümunələri ilə zəngindir. 1991-ci ilin oktyabrında Azərbaycan öz dövlət müstəqilliyini elan etsə də, bu tarixi nailiyyəti itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Cəmiyyətin gələcək inkişafı hüquq sahəsində islahatların həyata keçirilməsini, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılmasını tələb edirdi. Belə ki, o dövrdə ölkə daxilindəki vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurmalar nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı birbaşa hədəfə almışdı.

Digər tərəfdən də təcavüzkar Ermənistanın ölkəmizə qarşı torpaq iddiaları ilə müşayiət olunan Dağlıq Qarabağ problemi ağır yük kimi Azərbaycanın başı üzərində dururdu. Hər kəsin var gücü ilə xarici düşmənə qarşı həmrəylik nümayiş etdirməli olduğu belə bir şəraitdə ayrı-ayrı mafioz qruplarda birləşmiş hakimiyyət hərisləri isə özlərinin şəxsi maraqlarına xidmət edən fəaliyyətlə məşğul idilər. Azərbaycanın o dövrdəki hakimiyyətinin dişsizliyi, qorxaqlığı, siyasi səbatsızlığı bir tərəfdən, xəyanətkar AXC-Müsavat cütlüyünün antimilli mövqeyi isə digər tərəfdən vəziyyəti daha da mürəkkəbləşdirmişdi. 1992-ci ilin yaz aylarından başlanan daxili hərc-mərclik, siyasi qüvvələrin çəkişməsi cəbhə bölgəsinin nəzarətdən kənar qalmasına və Qarabağ savaşında ermənilərin üstünlüyü ələ almasına gətirib çıxardı. Başqa sözlə, AXC-Müsavat cütlüyü Qarabağ kartından istifadə etməklə, daha konkret desək, Şuşa və Laçın rayonlarını xaincəsinə erməni işğalçılarına təslim etməklə Ayaz Mütəllibovu devirərək hakimiyyəti faktiki olaraq zəbt etdi.

Özünə qarşı təşkil olunan sui-qəsd cəhdlərinə cavab olaraq hər zaman olduğu kimi, cəsarət və siyasi iradə nümunəsi göstərən Ulu Öndərin prinsipial mövqeyi xalq tərəfindən birmənalı şəkildə dəstəkləndi və bu xain cəhdlərin qarşısı qətiyyətlə alındı. Heydər Əliyev isə həmin həyəcanlı günlərdə müdrik mövqe sərgiləyərək öz çıxışlarında ümummilli məqsədlər uğrunda birliyə çağırış edirdi: *"Biz çalışmalıyıq ki, hamı bir yumruq kimi birləşsin. Biz həm düşmən təcavüzünün qarşısını almalıyıq, həm də maddi və sosial böhran içərisində yaşayan xalqımızın həyat tərzini yüksəltməyə çalışmalıyıq"*.

Zaman keçdikcə Azərbaycanın inkişaf strategiyasının ideoloji sütununa və ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının (YAP) yaradılması da həmin dövrə təsadüf edir və bu, Heydər Əliyevin əsl dövlətçilik təfəkkürünün daha bir təntənəsidir. Belə ki, xalqı milli mənafelər üzərindən azərbaycançılıq ideologiyası ətrafında birləşdirmək məqsədilə müxalifət partiyası kimi yaradılmış YAP öz fəaliyyəti ilə siyasi-ideoloji mübarizənin sivil qaydalarla aparmağın doğru yolunu və ölkənin inkişaf konsepsiyasını düzgün müəyyənləşdirə bilən yeganə siyasi təşkilat kimi həyata vəsiqə aldı.

Dövlətçilikdən anlayışı olmayan avantürist Müsavat-AXC tandeminin səbatsız daxili və xarici siyasət kursu Azərbaycanın başına gələn bəlaların əsas səbəbi idi. "Cəbhəçi"lər Heydər Əliyevin 1970-80-ci illər ərzində yaratdığı fundamental nailiyyətləri qısa müddətdə məhv etmişdilər, sərvətlər talan olunaraq işbazlar tərəfindən xaricə satılmışdı. Ümumiyyətlə, səfalət burulğanına sürüklənmiş ölkə kriminal, mafioz qruplar, silahlı birləşmələr tərəfindən idarə olunurdu.

Qarabağ məsələsi milli maraqlar çərçivəsindən çıxaraq şəxsi mənafe predmetinə çevrilmişdi. Kəlbəcər rayonunun işğalı nəticəsində Dağlıq Qarabağ faktiki olaraq Ermənistanla birləşdi. Beləliklə də, bu hadisələr yarıtmaz fəaliyyəti və davranışları ilə xalq içində tamamilə nüfuzdan düşmüş AXC-Müsavat iqtidarının biabırçı sonunu yaxınlaşdırdı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev AXC-Müsavat cütlüyünün xəyanətkar mahiyyətini bir daha ifşa edərək onu səciyyələndirən məqamlarla bağlı demişdir: *"...Xalq Cəbhəsi-Müsavat hakimiyyəti bunun günahkarıdır. Onlar bu xəyanəti törətdilər, ondan sonra da qorxaqcasına qaçıb gizləndilər, fərarilik etdilər, Şuşanı satdılar... Xalq Cəbhəsi - Müsavat ancaq hakimiyyətə gəlmək üçün xəyanət, satqınlıq, cinayət törədib... Sonra da Azərbaycanda talançılığı dövlət siyasətinə çevirib, rüşvətxorluğu öz ideoloji prinsipi elan edib, satqınlığı, fərariliyi Azərbaycan xalqının tarixinə bir ləkə kimi yapışdırıb. Xalq Cəbhəsi-Müsavat satqınları xalqımızı dünyanın gözü qarşısında rəzil etmişlər, biabır etmişlər"*.

Rusiya hərbi birləşmələrinin ölkəmizin ərazisindən çıxarılması Moskvanın Bakıya münasibətdə məlum sərt mövqeyinin formalaşmasında öz sözünü dedi: həmin illərdə məhz şimal qonşumuzun himayəsi ilə torpaqlarımızın Ermənistan tərəfindən işğalı həyata keçirildi. Bundan savayı, Müsavat-AXC cütlüyünün mövcud şəraitə adekvat olmayan məqamda "Cənubi Azərbaycan" problemini qabartması nəticəsində İranla da münasibətlər son dərəcə kəskinləşdi. Bu siyasətin nəticəsində faktiki olaraq Azərbaycan həm şimaldan, həm də cənubdan ağır təzyiq altına düşdü. Qardaş Türkiyə ilə qarşılıqlı münasibətlər inamsızlıqla müşayiət olunmağa başladı. ABŞ Konqresi isə Azərbaycanı dövlət səviyyəsində hər cür yardımdan məhrum edən "907-ci əlavə"ni qəbul etdi.

Hakimiyyət uğrunda daxili çəkişmələrin kulminasiya nöqtəsi kimi Gəncə şəhərində baş vermiş 1993-cü il 4 iyun hadisələri respublikanı faktiki olaraq real vətəndaş müharibəsinə sürüklədi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü. Belə bir vəziyyətdən çıxış yolunu axtaran Azərbaycan xalqı xilasını yalniz Heydər Əliyevin simasinda görürdü. Nəhayət, Ulu Öndərin obyektiv tarixi zərurət kimi 1993-cü ilin iyun ayında ölkə rəhbərliyinə gəlişi Azərbaycanın qurtuluş təqvimi, ölkənin inkişaf strategiyasının dönüş nöqtəsi oldu. Belə ki, sələflərindən çox ağır bir mirası qəbul etməsinə baxmayaraq, Heydər Əliyev Azərbaycanı dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas etməyə nail oldu.

1991-ci ilin oktyabrında Azərbaycan dövlət müstəqilliyini elan etsə də, SSRİ-dən miras qalmış hüquq sistemi və qanunlar hüquqi və demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat vermirdi. Cəmiyyətin gələcək inkişafı hüquq sahəsində islahatların həyata keçirilməsini, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılmasını tələb edirdi.

Azərbaycanda dövlət orqanlarının fəaliyyətini və dövlətçiliyi bərpa etmək məqsədilə 1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkilərinin nəticələri ölkə Prezidenti seçilən Heydər Əliyevə xalqın dərin etimadının göstəricisinə çevrildi. Ulu Öndər bundan sonra ölkəmizin inkişaf paradiqmasını dövrün xüsusiyyətlərinə və zamanın tələblərinə müvafiq olaraq müəyyənləşdirdi. 1994-cü ilin mayında cəbhədə atəşkəsə nail olduqdan sonra ağıllı neft strategiyasına start verilməsi nəticəsində iqtisadi dirçəliş mümkün oldu. Daxildəki pozucu qüvvələrin neytrallaşdırılması ilə ölkədə sabitlik bərpa olundu. Təsadüfi deyil ki, 1993-cü ildə Ulu Öndərimiz qarşıya qoyduğu vəzifələri belə bəyan etmişdi: *"Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir"*.

1995-ci ildə Ulu Öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyanın qəbul olunması ilə ölkənin əsas hüquqi, dünyəvi dövlətçilik modelinin əsas hüquqi bazası formalaşdı. Milli qanunvericiliyimizin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində mühüm addımlar atıldı. Hakimiyyətin qolları arasında qarşılıqlı əlaqələrin sistemli şəkildə formalaşması nəticəsində bütün istiqamətlərdə çevik və səmərəli fəaliyyət üçün real zəmin yarandı. Bu baxımdan, dünyanın siyasi arenasında müstəqil subyektə çevrilmiş Azərbaycanda milli dövlətçilik ənənəsinin formalaşması, ilk növbədə, Heydər Əliyevin tarixi xidməti kimi dəyərləndirilməlidir.

Əsrə bərabər cəmi 10 il ərzində müstəqil Azərbaycan Respublikasının sükanı arxasında duran Heydər Əliyevin praqmatik xarici siyasəti nəticəsində dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. Ulu Öndər Qərb demokratiyası ilə Şərq dəyərlərinin bənzərsiz sintezini özündə əks etdirən yeni nəsil müasir dövlət modelini yaratmağa müvəffəq oldu.

Ona qədər AXC-Müsavat cütlüyünün səriştəsiz idarəçiliyi nəticəsində xarici siyasət sahəsində bağışlanılmaz səhvlər edilmişdi. Bu, eyni zamanda meydana gələn yeni müstəqil dövlətlərlə münasibətlərin formalaşmasında özünü büruzə verirdi. Xüsusilə Rusiya Federasiyasının tarixən Cənubi Qafqazda təsir gücünü nəzərə almayan "cəbhəçilər" şimal qonşumuzla əlaqələrinin sonda bu naşılığın bədəlini Azərbaycan xalqına ödətdirmiş oldular. Məsələyə daha geniş aspektdən yanaşsaq, əmin olaraq ki, belə vəziyyət həm Rusiyada, həm də Azərbaycanda hakimiyyətə gəlmiş rəhbərlərin - SSRİ prezidenti Qorbaçovun bütövlükdə sovet xalqına xəyanətindən, Rusiya prezidenti Yeltsinin dünya siyasətinə yanlış baxışından və Azərbaycan prezidenti Əbülfəz Əliyevin səhv diplomatik addımlarından və qonşuluq münasibətlərinə məsuliyyətsiz yanaşmasından irəli gəlmişdi.

Bu istiqamətdə məsələlərin düzgün istiqamətə yönəldilməsi də məhz Heydər Əliyevin tarixi xidmətidir. Onun təşəbbüsü ilə Cənubi Qafqazda mühüm xarici vektor olan Rusiya amilinin Azərbaycanın xeyrinə işləməsi üçün iki ölkə arasında dostluq münasibətlərinin qurulması istiqamətində mühüm addımlar atıldı, iki ölkə arasında strateji tərəfdaşlığın əsasları qoyuldu. Bu gün ən yeni tariximiz Ulu Öndərin uzaqgörənliyini təsdiq edən nümunələrlə zənginləşməkdə davam edir. Heydər Əliyevin yüksək nüfuzunu dəyərləndirən Vladimir Putinin ali rəhbərliyə gəlişindən sonra - 2000-ci illərin əvvəllərindən başlayaraq ölkələrimiz arasında münasibətlərdə formalaşmağa başlayan əsaslı dönüş cənab İlham Əliyevin prezidentliyi dönəmində - 2022-ci ildə müttəfiqlik qarşılıqlı fəaliyyət səviyyəsinə qədər yüksəldi. Burada da dövlət başçılarının birgə müdrik diplomatik gedişləri həlledici rol oynadı. Artıq indi heç kimə sirr deyil ki, Azərbaycanın real müstəqilliyinin təmin edilməsi, ərazi bütövlüyünün və bütün ölkə ərazisində konstitusiya quruluşunun etibarlı şəkildə bərpası digər amillərlə yanaşı, beynəlxalq güclərlə, qonşu dövlətlərlə, o cümlədən dünyanın fövqəldövlətlərindən biri olan və Cənubi Qafqazda ən böyük təsir imkanlarına malik qonşu Rusiya ilə münasibətlərin lazımi istiqamətdə tənzimlənməsi ilə bilavasitə əlaqədardır. Təkcə onu qeyd etmək kifayətdir ki, 44 günlük Vətən müharibəsində və ötən ilin sentyabrında bütün ölkə ərazisində konstitusiya quruluşunun bərpası ilə nəticələnmiş uğurlu antiterror tədbirlərinin keçirilməsində Rusiyanın loyal mövqeyinə nail olunması bənzərsiz diplomatik gedişlərin nəticəsidir. Heydər Əliyevin yeni dövlət müstəqilliyi dövründə bu istiqamətdə göstərdiyi səylər bu gün təkcə Rusiya ilə deyil, həmçinin Müstəqil Dövlətlər Birliyinə (MDB) və Türk Dövlətləri Təşkilatına (TDT) daxil olan digər ölkələrlə münasibətlərin istiqamətini müəyyənləşdirən möhkəm siyasi təməl rolunu oynayır.

Beləliklə, Azərbaycanın müstəqillik dövründə əldə etdiyi ciddi uğurlar, sürətli iqtisadi inkişaf yolu ilə bölgədəki stabil lider mövqeyi məhz Ulu Öndərin müəyyən etdiyi dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış, təcrübədən uğurla çıxmış təkmil mexanizmlər əsasında həyata keçirilməsi ilə bilavasitə bağlıdır. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında deyilir: *"Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir... Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir"*.

*Qarabağı düşmən tapdağından azad etməklə Ulu Öndər Heydər Əliyevin ən ümdə vəsiyyətinə əməl edən dövlət başçımızın diplomatik səyləri nəticəsində ölkəmizin paytaxtı dünyanı təhdid edən ən ciddi problemlərin çözüldüyü beynəlxalq platformaya çevrilib. Mayın 1-dən 3-dək Bakıda təşkil edilmiş VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun yekunu və bu ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsi barədə qəbul olunmuş yekdil qərar Azərbaycana beynəlxalq səviyyədə növbəti dəfə böyük etimadın və hörmətin göstəricisidir.*

**Əli HÜSEYNLİ,**
***Milli Məclis Sədrinin birinci müavini,***
***parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri***

1923 *Azərbaycanın özü qədər əbədi* 2024

# Tarix yaradan şəxsiyyət

**Bu günlərdə xalqımız müasir Azərbaycan dövlətçiliyinin banisi, dünyanın seçilmiş insanlarından biri, unudulmaz şəxsiyyət Heydər Əliyevin 101 illiyini qeyd edir. Ulu Öndərin başlatdığı nəhəng işlərin, qazanılan nailiyyətlərin hər birində onun varlığını hiss edirik. Bu hiss Heydər Əliyevin Azərbaycanın bu günündən şad ruhunu bütün qəlbi ilə duyan hər bir insanın daşımalı olduğu əbədi bir vəzifəni - Ulu Öndər ideyalarına sadiqlik vəzifəsini müəyyənləşdirir.**



Ümummilli Lider Heydər Əliyev Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin nadir simasıdır. Heydər Əliyev ölkəsinin inkişafı və xalqımızın taleyi baxımından böyük tarix yaratmış görkəmli tarixi şəxsiyyətdir. Heydər Əliyev tarixin ən çətin və məsuliyyətli zamanlarında da tarix yaratmağın əsl nümunəsini göstərmişdir. Böyük dövlət xadimi Heydər Əliyevdə tarixi şəxsiyyətlər üçün zəruri olan bütün keyfiyyətlər cəmləşmişdir. Möhkəm siyasi iradə, aydın dövlətçilik mövqeyi və ümummilli mənafe bu böyük tarixi şəxsiyyətin həyatının və mübarizəsinin əsas istiqamətlərini müəyyən etmişdir. Tərcümeyi-halının bütün mərhələlərində Ulu Öndər Heydər Əliyevin dövlətçilik strategiyasının ali məqsədi Azərbaycan xalqına sədaqətlə xidmət etməkdən və müstəqil dövlət qurmağa nail olmaqdan ibarət idi. Bu düşünülmüş, əqidə kimi qəbul edilmiş ümummilli mövqe və müstəqil dövlətçilik strategiyası Heydər Əliyev tərəfindən seçilmiş məqsədyönlü taktika ilə dönmədən həyata keçirilmişdir.

Azərbaycan xalqının əsrlər boyu formalaşmış yüksək mənəvi dəyərlərini qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya ötən əsrdə məhz Ümummilli Lider Heydər Əliyevin üzərinə düşmüşdür. O, özünə qədər Azərbaycana rəhbərlik etmiş bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirmiş, işıqlı əməlləri, yorulmaz fəaliyyəti ilə ən yeni tariximizin parlaq səhifələrini yaratmışdır. Ulu Öndər Heydər Əliyev fəaliyyətinin hər bir anında xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət etmiş, Azərbaycan torpağının və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmış, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün olan hər şeyi, çoxlarına əlçatmaz görünən arzuları belə gerçəkləşdirmişdir.

Qəhrəmanlığın, hünərin ən möhtəşəmi Vətən naminə edildiyindən, dahi rəhbərimiz Heydər Əliyevin bu istiqamətdəki tarixi xidmətləri Vətən və dövlət, millət və xalq naminə göstərilən bütün fədakarlıqların fövqündə dayanır.

Ulu Öndər Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür. Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir. Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bu mənada, Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür.

Ümummilli Lider Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində müstəqil Azərbaycan xarici siyasətində etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış edən, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyən, "dövlət-vətəndaş" birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrilib.

Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikanın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayaraq Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanıb. Zaman və ictimai-iqtisadi formasiya baxımından kifayət qədər fərqli olan hər iki tarixi dövrün əsas bənzər cəhətləri isə Ulu Öndərin Azərbaycana böyük nailiyyətlər qazandıran fədakar xidməti, eləcə də ölkənin inkişafında yeni impuls və tərəqqi meyillərinin geniş vüsət alması olub. Beləliklə, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və tarixi şərait baxımından tamam fərqli olan dövrlər sadəcə eyni missiyanın, bir-birini tamamlayan iki mərhələsi kimi qiymətləndirilə bilər.

Hakimiyyətdə olduğu 34 il müddətində dahi öndər xalqının tarixi mənafeləri uğrunda əzmkar mübarizə aparmış və ictimai-siyasi proseslərdə real güc mərkəzi kimi özünü göstərmişdir. Azərbaycan ictimai təfəkküründə əsrlər boyu aktuallığını qoruyub saxlayan ədalətli rəhbər arzusu da Heydər Əliyev dühasının parlaq şəxsiyyətində reallığa qovuşmuş, Ümummilli Lider siyasi fəaliyyətinin bütün mərhələlərində humanizm və insanpərvərlik prinsiplərinə əsaslanan mükəmməl idarəçilik sisteminin formalaşdırılmasına xüsusi diqqət yetirmişdir. Dərin zəkası, liderlik qabiliyyəti, milli dəyərlərə sıx bağlılığı, fitri idarəçilik məharəti, zəngin mənəviyyatı ilə daim xalqının sevimli şəxsiyyəti olmuş Ulu Öndər bu zirvəyə həm də hakimiyyət sükanının arxasına keçdiyi ilk gündən qanunsuzluğa, ədalətsizliyə və özbaşınalığa qarşı apardığı prinsipial mübarizə ilə yüksəlmişdir.

Hələ 1969-cu il iyulun 14-də Azərbaycanda rəhbərliyə başlayan Heydər Əliyev respublikada qanunçuluğun gücləndirilməsinə başlamışdır. Bu mərhələdən etibarən respublikamızın həyatında geniş vüsət alan ictimai-siyasi proseslər və iqtisadi islahatlar müsbətə doğru radikal dəyişikliklərə təkan vermişdir. Müstəqil Azərbaycanın 32 ildən çox müddətdə sosial-iqtisadi sahədə qazandığı böyük uğurlar da Ümummilli Lider Heydər Əliyevin hələ ötən əsrin 70-80-ci illərində böyük müdrikliklə formalaşdırdığı iqtisadi resurslardan, sənaye və istehsal potensialından qaynaqlanır. Ulu Öndər Heydər Əliyev bu gün həm də keçmiş ittifaqın iqtisadiyyatı üçün əlverişli xammal bazasına çevrilmiş Azərbaycanın yeni inkişaf strategiyasını işləyib həyata keçirmiş lider kimi ehtiramla xatırlanır. Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik nemətinə qovuşacaq respublikamızın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratmış, tarix böyük strateqin bu statusunu bütün mərhələlərdə qorumuşdur.

1970-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində respublikada onlarla zavod, fabrik, istehsalat sahələri yaradılmış, sənaye müəssisələri fəaliyyətə başlamışdır. Respublikaya birinci rəhbərliyi dövründə Ulu Öndər Heydər Əliyev qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirmiş, bununla da respublika regionlarının tarazlı qaydada inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, demoqrafik inkişafa, kənd və qəsəbələrin sosial-mədəni simasının müasirləşməsinə dair strateji məqsədlərini ardıcıllıqla həyata keçirmişdir. Ulu Öndər Heydər Əliyev o dövrün ən ağır şərtləri, məhdudiyyətləri çərçivəsində xalqının gələcək rifahı üçün əlindən gələni əsirgəməmiş, bəzən mümkün görünməyəni belə reallığa çevirmişdir.

Ümumiyyətlə, dünyanın böyük şəxsiyyətləri həmişə adi insanların yaşadığı həyat tərzinin fövqündə dururlar. Ulu Öndər insanların həyat yoluna işıq saçan təfəkkür və mənəviyyat sahibi idi. Hərəkətləri sadə olsa da, bunun arxasında həmişə böyük məna durardı. Ulu Öndər böyük ideyaya malik idi. Atdığı addımlar, yürütdüyü siyasət, istifadə etdiyi diplomatik üsullar onun uzaqgörənliyini, strateji təfəkkürə sahib olduğunu təsdiq edirdi. Beynəlxalq müstəvidə dünya liderləri də Heydər Əliyevi zəmanəni qabaqlayan dünya miqyaslı dövlət xadimi kimi qəbul edirdilər.

Gələcək müstəqilliyə etibarlı zəmin idarəçilik fəlsəfəsi fərqli və özünəməxsus cəhətlərlə zəngin olan Ümummilli Liderin Sovet Azərbaycanına rəhbərlik mərhələsi ölkəni sürətli inkişaf yoluna çıxarmaqla yanaşı, milli müstəqilliyə etibarlı zəmin formalaşdıran amillərlə də zəngin olub. Milli özünəqayıdış və özünüdərkin məhz bu dövrdə başlanğıcını qoyan, azərbaycançılıq məfkurəsinin keçən əsrdə yazılan ən parlaq səhifələrinin müəllifi olan Ulu Öndər Heydər Əliyevin Azərbaycana gətirdiyi ideyalar ölkə həyatını tamamilə müasirləşdirib. Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin nadir idarəçilik keyfiyyətləri, xarizmatik liderlik cəhətləri, böyük vətənpərvərliyi ötən əsrin 70-ci illərindən etibarən milli ideyanın yüksəlişinin təmin edilməsində misilsiz rol oynayıb.

1982-ci ilin dekabrında Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü seçilməsi onun böyüklüyünün və müdrikliyinin ittifaq rəhbərliyi səviyyəsində etirafı olmuşdur. Ümummilli Liderin səlahiyyət dairəsinə nəqliyyatdan sənayeyə, neftdən sosial infrastrukturadək iqtisadiyyatın ən önəmli sahələri, həmçinin mədəniyyət, Yaxın Şərq diplomatiyası kimi olduqca vacib istiqamətlər aid idi. Bu dövrdə Heydər Əliyev ittifaq miqyasında, ən əsası isə xaricdə görkəmli dövlət xadimi, qurucu lider, birləşdirici siyasətçi kimi tanınmış və qəbul edilmişdi. Beş il ərzində Heydər Əliyev Azərbaycanda gedən ictimai-siyasi və mədəni prosesləri uzaq Moskvadan müşahidə etsə də, eyni zamanda vətənə gələrək insanlarla görüşmüş, respublikanın daxili həyatı haqqında daha səhih məlumatlar almağa çalışmışdır.

1969-1987-ci illər, yəni Heydər Əliyev dövrü necə böyük uğurlarla, möhtəşəm quruculuqla müşayiət olundusa, 1987-1992-ci illər - Heydər Əliyevin rəhbərlikdə olmadığı müddət böyük faciələrlə, itkilərlə, böhranlarla keçdi. Biz Heydər Əliyevsizliyin necə böyük məşəqqətlərə rəvac verdiyini yüzlərlə acı faktın timsalında aydın hiss etdik. Tarix boyu böyük siyasi liderlər üçün səciyyəvi keyfiyyətlərdən biri də onların xalq və dövlət üçün ən böhranlı, çətin sınaq anlarında məsuliyyəti çiyinlərinə götürmələri, bütöv bir xalqın, millətin xilaskarına çevrilmələri olmuşdur. Bu mənada, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin idarəçilik keyfiyyətləri sırasında onun ən çətin, millətin taleyi baxımından məsuliyyətli zamanlarda düzgün qərarlar qəbul etmək məharətini xüsusi qeyd etmək lazımdır.

Azərbaycan özünün dövlət müstəqilliyinin bərpasından cəmi 2 il sonra - 1993-cü ildə çətin sınaqlarla üz-üzə qalanda xalqın yeganə xilaskarı kimi Ulu Öndər Heydər Əliyevi hakimiyyətdə görmək istəyi də bu gerçəklikdən qaynaqlanmışdır. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Bakıya qayıdan Ümummilli Lider Heydər Əliyev yorulmaq bilmədən, qətiyyət və böyük bacarıqla Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələr zərərsizləşdirilmişdir. Ulu Öndər ictimai-siyasi sabitliyin bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını ortaya qoymuşdur. Ulu Öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Ümummilli Lider mərkəzi planlaşdırma və bölgü sistemindən sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesinin aztəminatlı təbəqənin maraqlarına toxunmaması üçün dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını təmin etmişdir.

Həmin dövrdə respublikanın məhdud maliyyə imkanları və zəif büdcəsi ilə qarşıya qoyulmuş strateji məqsədlərin yaxın gələcəkdə reallaşdırılmasının qeyri-mümkünlüyünü nəzərə alan, sosial-iqtisadi inkişaf prosesində xarici kapital və sərmayə amilinin təkanverici rolunu düzgün olaraq önə çəkən Heydər Əliyev xarici şirkətlərlə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına da vacib məsələ kimi yanaşmışdır. İqtisadi inkişafın sürətləndirilməsinin, səmərəli sosial-iqtisadi islahatların aparılmasının, investisiya layihələrinin həyata keçirilməsinin ümdə şərti kimi müstəqil Azərbaycanın yeni neft strategiyası işlənib hazırlanmış, 1994-cü ildən etibarən mərhələlərlə həyata keçirilmişdir.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyamız demokratiya və azad bazar iqtisadiyyatı yolunu seçmiş Azərbaycanda siyasi sistemin modernləşdirilməsinə, vətəndaşların hüquq və vəzifələrinin sərhədlərinin dəqiq şəkildə müəyyənləşdirilməsinə, hakimiyyət bölgüsü prinsipinin tam şəkildə bərqərar olmasına imkan yaratmışdır. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu ideyasının təməl prinsiplərini özündə ehtiva edən bu Konstitusiya ötən müddətdə ictimai münasibətlərin sivil şəkildə tənzimlənməsinə, dövlətlə vətəndaş arasında qarşılıqlı məsuliyyət və vəzifələrin müəyyənləşdirilməsinə mükəmməl mexanizmlər yaratmışdır.

Heydər Əliyev fenomeni təkcə dünənin fakt və hadisələrini özündə ehtiva etməklə məhdudlaşmır, həm də Azərbaycandakı bu günün inkişaf proseslərini istiqamətləndirən, bu proseslərə təkan verən mühüm siyasi-ideoloji amil kimi çıxış edir. Tarixi təcrübə sübut edir ki, cahanşümul fəaliyyət nəticəsində zamanın mənzərəsini dəyişməyə qabil olmuş böyük dövlət adamlarının xalq, dövlət mənafeyi naminə gördükləri işlərin onların cismani yoxluğundan sonrakı dövrdə də davam etdirilməsi üçün zəruri əsaslar formalaşdırmaları o şəxsiyyətlərin xalqa, dövlətə göstərdikləri bütün xidmətlər qədər önəmlidir.

Azərbaycanın mütərəqqi inkişaf strategiyasını irəli sürmüş Heydər Əliyev dühası bu gün cismən aramızda olmasa da, onun ölməz ideyaları xalqın uğurlu inkişaf yoluna parlaq işıq saçır, hər bir azərbaycanlını vahid məram və məqsədlər ətrafında toparlayır. Həm də onunla qürur duyuruq ki, Ümummilli Liderin İlham Əliyev kimi xalqının, dövlətinin maraqlarını daim uca tutan, hər bir vətəndaşın mənafeyini nəzərə alan, bir sözlə, hər vədini əməli işi ilə doğruldan layiqli siyasi davamçısı var. Azərbaycan xalqına son müraciətində Ulu Öndər İlham Əliyev haqqında "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikrini səsləndirməklə həm layiqli varis yetirdiyinin müjdəsini xalqa verir, həm də vətəndaşlarının da bu rəydə olduğunu ifadə edirdi. Fəaliyyətə "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" məramı ilə başlayan dövlət başçısı son 20 ildə əsas məqsədinin məhz real iş - konkret fəaliyyət olduğunu əməli surətdə təsdiqləmiş, verdiyi bütün vədləri layiqincə doğrultmuşdur. Ölkəyə rəhbərlik etdiyi dövrdə qəbul olunan fundamental qərarlar, imzaladığı sərəncamlar dövlət başçısı İlham Əliyevin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə verdiyi vədlərin sırf əməli fəaliyyətə söykəndiyini, reallığa adekvat olduğunu göstərmiş, onun ictimai rəydə alternativsiz rəhbərliyini şərtləndirmişdir.

Respublikamızın beynəlxalq hesabatlarda da inkişaf etməkdə olan ölkələri geridə qoyması ölkə rəhbəri İlham Əliyevin həyata keçirdiyi sürətli, məqsədyönlü və inklüziv iqtisadi islahatlara beynəlxalq qiymətdir. Bu islahatların uğurla reallaşdırılmasına Azərbaycanın Birinci vitse-prezidenti, Mehriban xanım Əliyeva da layiqli töhfələrini verir. Mehriban xanım Əliyeva insan amilini hər zaman uca tutmuş, cəmiyyətdə insanpərvərlik, humanizm kimi dəyərlərin möhkəm əsaslarla intişar tapmasına çalışmışdır. Mehriban xanımın ictimai-siyasi fəaliyyəti o qədər zəngin və parlaqdır ki, onu bütün incəliklərinə qədər təsvir etmək, sadalamaq, xatırlamaq qeyri-mümkündür. Bu mənada, Mehriban xanımın gənc və müstəqil dövlətimizin möhkəmlənməsi yolunda apardığı ideoloji mübarizəsinə, ümumən gördüyü işlərin miqyasına nəzər yetirəndə bu xidmətin həcmini təsəvvür etmək, ölkənin və xalqın həyatında yeniliklərlə müşayiət olunan inkişafı görmək, duymaq elə də çətin deyil. Mehriban Əliyevanın humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlərdən irəli gələn əzmkar və genişmiqyaslı fəaliyyətinin təməlində məhz millətə layiqli xidmət məramı dayanır. Mehriban xanım həm vətəndaş, həm ictimai xadim kimi Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayır, ölkənin inkişafına öz layiqli töhfələrini verir. "Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam. Mən də buna nail olmağa çalışacağam" - Mehriban xanımın həyat fəlsəfəsinin əsasını bu fikirlər təşkil edir. Onun bütün təşəbbüslərinin, gerçəkləşdirdiyi layihələrin mərkəzində - insan amili dayanır.

Mehriban xanım Heydər Əliyev Fondunu yaratmaqla, Ulu Öndər Heydər Əliyevin vətənimizin və xalqımızın inkişafı naminə gördüyü işləri, işıqlı ideyalarını yüksək səviyyədə davam etdirir. Fondun qarşıya qoyduğu məqsəd demək olar ki, həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş layihələr, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplər üzərində qurulmuşdu. Heydər Əliyev Fondu məhz milli-bəşəri ideyaların tərənnümçüsü, daşıyıcısı olması ilə qüdrətlidir. Mehriban Əliyevanın fondun rəhbəri kimi, ən böyük məqsədi də Heydər Əliyev irsinin bir məktəb kimi yeni nəslə öyrədilməsi, təbliğ olunmasıdır. Mehriban Əliyeva onun ideallarına sadiq qalaraq, milli-mənəvi dəyərlərimizi özünün həyat tərzində, əxlaqında və düşüncəsində yaşadaraq Ulu Öndərin yolunu ləyaqətlə davam etdirir. Bu, xalqın gələcəyini möhkəm özüllər üstə qurmağa, onu inkişaf etdirməyə aparan ən işıqlı yoldur. Bu, Ulu Öndərin apardığı yaradıcılıq və quruculuq işlərinin davamı olaraq vətən və xalq naminə fəaliyyət göstərməyin ən doğru yoludur. Mehriban Əliyevanın genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə bitmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Bir daha xatırladaq ki, bütün bunlar güclü, aydın təfəkkürə, təxəyyülə malik olan incə ruhlu, zərif təbiətli bir qadının - ölkənin birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyevanın bilavasitə çalışmaları sayəsində həyata keçirilir.

İslahatlarla bağlı Azərbaycan Prezidentinə ən böyük dəstək həm də xalqdan, öz taleyini İlham Əliyevə etibar etmiş Azərbaycan vətəndaşlarından gəlir. Dövlət rəhbərinin müəyyən etdiyi prioritetlərin icrasına ümumxalq dəstəyini hər an izləyirik. Bu gün Azərbaycan xalqı dövlət başçısı İlham Əliyevi intibahın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, ona tam güvənir. Xalqımız Azərbaycanın mənafelərinə xidmət göstərən amalların həyata keçirilməsində öz Prezidentinə dəstəyini əsirgəmir. Çünki xalq həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, bizi Azərbaycanın parlaq sabahına doğru yaxınlaşdıran siyasi kursun alternativsizliyini yaxşı dərk edir və bu siyasəti birmənalı şəkildə razılıqla qarşılayır.

Azərbaycan xalqı Heydər Əliyev kimi dühanı yetişdirdiyi üçün xoşbəxtdir. Bu gün Azərbaycanın dünyadakı mövqeyinə, dəstxətinə baxanda bir daha əmin olursan ki, Heydər Əliyev möcüzə yaratmış şəxsiyyətdir, möcüzələr memarıdır. O möcüzələrin ki, azərbaycanlını yenidən dövləti olan xalq statusuna qaldırdı. O möcüzələrin ki, bir toplumu dövlətçilik təfəkkürünə köklədi. Bəli, Heydər Əliyev Azərbaycanı Azərbaycan edəndir.

Heydər Əliyev şəxsiyyəti məfkurədir, ideyadır, qətiyyətdir, əzmdir, iradədir. Bunun təsdiqi baxımından kifayət qədər təkrarsız və bənzərsiz nümunələr var. O nümunələr yaşadığımız tarixin də ayrılmaz tərkib hissəsi kimi özünü təsdiqləmiş, vətəndaşlıq hüququ qazanmış təbiətə malikdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 noyabr 2020-ci il tarixdə Şuşanın azad olunması münasibətilə xalqa müraciətindəki bu fikirlər: "Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!" - bunun real təsdiqidir.

Bəli, Heydər Əliyevin torpaqlarımızın düşmən tapdağından xilas edilməsi yolundakı dönməzliyi, prinsipiallığı nəticəsini verdi. Qarabağ məsələsinin dərinliklərini, siyasi labirintlərini nəzərdən keçirəndə, görürük ki, ortada insanı heyrətə gətirən nəticə var. Qürur duyuruq, fəxarət hissi keçiririk ki, xalqımızın Heydər Əliyev kimi stereotipləri sındıran, tarixi dəyişdirən, axına qarşı çıxa bilən mərd övladı, son dərəcə dərin siması, dünya dövlətləri içərisində özünəməxsus aydın mövqeyi və möhkəm siyasi iradəsi, konkret dövlətçilik strategiyası və taktikası olan beynəlxalq səviyyədə həm də qlobal baxışları ilə səciyyələndirilən İlham Əliyev kimi qüdrətli lideri var.

Qarabağın Azərbaycana qayıtması sıradan hadisə sayıla bilməzdi. Qarabağı və digər işğal edilmiş torpaqlarımızı bizə qovuşduran təpər və cəsarət illərdən bəri aparılmış düşünülmüş siyasətin son dərəcə parlaq akkordu idi. O siyasətin ki, təməlini Heydər Əliyevdən götürmüşdü.

Prezident İlham Əliyev məhz bu ideyanı müqəddəs məfkurəyə çevirdi.

Prezident İlham Əliyev müstəqil Azərbaycan dövlətinin mövqeyini heç nə ilə dəyişməyən, əksinə, hər dəfə inkişaf etdirib möhkəmləndirən görkəmli dövlət xadimidir. Azərbaycan Respublikasını bütün istiqamətlər üzrə inkişaf etdirilərək dünyanın böyük dövlətlərinin orbitinə gətirib çıxarmaq İlham Əliyevin siyasi iradəsinin möhtəşəm yekunudur. Bu gün dünya dövlətləri arasında müstəqil Azərbaycan Respublikasının, ölkələrin və xalqların cərgəsində isə Azərbaycan xalqının yerinin, nüfuzunun, sözünün qüvvətləndirilməsi Prezident İlham Əliyevin aydın siyasi mövqeyi ilə möhkəm iradəsinin mühüm yekunudur. Azərbaycan Respublikasının müstəqillik tarixi ərzində bütün məqamlarda dövlət rəhbəri ilə daim həmrəylik nümayiş etdirməsi artıq Azərbaycan xalqının mövqeyinin ifadəsidir. Bu məqamda xalqını və dövlətini inkişaf etdirmək üçün var qüvvəsi ilə çalışaraq böyük nailiyyətlərə imza atmış Prezident İlham Əliyevin mövqeyi ilə onu ürəkdən dəstəkləyən xalqın mövqeyi üst-üstə düşür və vəhdət təşkil edir. Azərbaycan dövlətçiliyini çətin sınaqlardan çıxarmış Heydər Əliyevin mövqeyi Prezident İlham Əliyevin ölkə daxilində və beynəlxalq aləmdə nümayiş etdirdiyi aydın siyasi mövqe və möhkəm iradə ilə birlikdə xalqımıza və ölkəmizə böyük nüfuz qazandırır, daha geniş üfüqlərə doğru addımlamaqda güc və qüvvət verir.

*Heydər Əliyevin canından artıq sevdiyi Azərbaycan ərazi bütövlüyünə qovuşub. "Qarabağ Azərbaycandır!" şüarıyla döyüşlərə atılmış və qələbə qazanmış xalqın önündə yeni yollar açılıb. Üfüq kimi yollar və bu üfüqdə Azərbaycan adlı daha parlaq günəş var! O günəş dayanmadan işıq saçır, aləmi nura boyayır! O günəş Azərbaycan dövlətinin əbədiyyət simvoludur! Üfüqdəki Azərbaycan günəşinin varlığına görədir ki, Heydər Əliyevin ruhu da şaddır! Ruhun hər zaman şad olsun, dahi şəxsiyyət! Daim qəlbimizdəsən!*

**Asif ƏSGƏROV,**
***Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı***

1923 *Azərbaycanın özü qədər əbədi* 2024

**Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etdi. Dövlət müstəqilliyinin bərpası Azərbaycan xalqının tarixində böyük hadisə olmaqla, yeni bir dövrün başlanğıcı idi. Azərbaycan xalqı milli dövlətçilik ənənələrinə, tarixi və mədəni irsinə söykənərək demokratik və hüquqi dövlət quruculuğu yolunu seçdi. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda durdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başlayan hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və iqtisadi problemlərlə üz-üzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi.**



# Milli maraqlara əsaslanan xarici siyasətin banisi

Bu dövrdə Azərbaycan Respublikasının qarşısında onun dövlət müstəqilliyinin tanıdılması və möhkəmləndirilməsi, Ermənistanın əsassız ərazi iddiaları ilə başladığı təcavüzün nəticəsində yaradılmış Qarabağ münaqişəsinin milli maraqlara uyğun həlli və işğal edilmiş ərazilərin azad edilməsi, dövlət quruculuğu, ölkənin inkişafını təmin etmək əlverişli beynəlxalq şəraitin yaradılması kimi mühüm vəzifələr dururdu. Həmin vəzifələri yerinə yetirmək üçün ardıcıl, məqsədyönlü xarici siyasət kursunun hazırlanması və reallaşdırılması tələb olunurdu.

Lakin XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində başlamış Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, eləcə də hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal altına düşmüşdü. Müstəqilliyin bərpa edildiyi ərəfədə və ondan az sonra azərbaycanlılar indiki Ermənistandan - öz tarixi torpaqlarından zorakılıqla, təcavüzə məruz qalaraq deportasiya edilmişdi. Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində isə azərbaycanlılar yaşayan məntəqələr bir-birinin ardınca Ermənistan silahlı qüvvələri və terrorçu dəstələri tərəfindən keçmiş sovet hərbi hissələrinin köməyi ilə işğal edilmiş, əhalisi isə öz doğma yurdlarından məcburən köçkün düşmüşdü.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və milli maraqların qorunmasına əsaslanan xarici siyasət tələb edirdi.

1993-cü ilin ikinci yarısında Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli maraqlarının və mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Heydər Əliyev özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya məqsəd kimi qoymuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxartmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq idi. Ona görə də yeni siyasi kursu həyata keçirmək üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi.

Ümummilli Lider Heydər Əliyev bildirmişdir ki, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri ölkəmizin mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin olmasıdır: "Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir... Nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü, xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq... Bundan sonra görüləsi işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır".

Digər mühüm vəzifələrdən biri də bəzi dövlətlər ilə münasibətlərdə əsassız yaradılmış gərginliyi aradan qaldırmaq, balanslı və milli maraqlara əsaslanan xarici siyasət xəttini təmin etmək, region dövlətlərlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin qorunmasına nail olmaq idi. Qarşıda duran ən mühüm vəzifələrdən biri də münaqişənin ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi şərti ilə ədalətli şəkildə həll olunması üçün böyük dövlətlərin, eləcə də beynəlxalq təşkilatların səylərini gücləndirməyə nail olmaqdan ibarət idi.

Demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada, Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycanın milli təhlükəsizliyi onun dünya və region dövlətləri, habelə beynəlxalq təşkilatlarla balanslaşdırılmış strateji xətt yeritməsini zərurətə çevirdi. Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının xarici siyasət prioritetlərindən bəhs edərək qeyd edirdi: "...Dəyişən dünyamızda Azərbaycanın siyasi missiyası dost və tərəfdaş axtarışına, blok və ittifaqların çoxvariantlılığına yönəlmişdir. Bu, Azərbaycanın dünya dövlətləri ailəsində statusunu, suverenliyinin möhkəmləndirəcək, həm də müxtəlif dövlətlərlə yaxınlaşmasına kömək edəcəkdir".

Ümummilli Lider son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsinə və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi.

Azərbaycanın enerji siyasətinin əsasını təşkil edən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz əsas ixrac boru kəmərlərinin tikintisinə başlandı. Sonrakı illərdə onların işə salınması nəticəsində Azərbaycan nəinki özünün enerji təhlükəsizliyini təmin etdi, eyni zamanda Avropanın enerji təminatında mühüm rol oynamağa başladı. Həmçinin enerji diplomatiyası Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirdi.

Bununla yanaşı, dövlət müstəqilliyinin bərpasından sonra Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi Azərbaycan diplomatiyasının qarşısında duran mühüm və çətin məsələlərdən biri oldu. Bu məsələyə dair Xəzəryanı ölkələrlə Azərbaycanın milli mənafelərinə uyğun olaraq səmərəli danışıqlar aparıldı.

SSRİ-nin mövcudluğu dövründə Xəzər dənizi İranın və Sovet İttifaqının nəzarəti altında olmuşdur. Ötən müddət ərzində SSRİ və İran Xəzər dənizinə dair siyasətlərini 1921-ci və 1940-cı illərdə imzalanmış müqavilələrə uyğun olaraq qurmuşdular. Xəzər dənizində üçüncü dövlətin gəmiləri ola bilməzdi. Beləliklə, SSRİ dağılana qədər Xəzər dənizinin hüquqi statusu məsələsi ikitərəfli münasibətlərdə müzakirə mövzusu olmamışdı.

SSRİ-nin dağılması nəticəsində Xəzər dənizi ətrafında yeni müstəqil dövlətlərin - Azərbaycan, Türkmənistan, Qazaxıstan və Rusiyanın meydana gəlməsi ilə regionda tamamilə yeni geosiyasi şərait yaranmışdı. Hələ sovet dövründə Xəzər dənizində ciddi siyasi, iqtisadi, ekoloji və digər xarakterli problemlər mövcud idi. SSRİ-nin dağılması ilə həmin problemlər daha da kəskinləşmişdi. Xəzər dənizinin zəngin təbii, ilk növbədə, enerji ehtiyatlarının mövcudluğunun təsiri altında vəziyyət tamamilə dəyişmişdi.

Xəzəryanı dövlətlərdən hər biri öz maraq və mənfəətlərini əsas götürərək mövqelərini əsaslandırmağa başlamışdılar. Nəticədə Xəzər dənizi hövzəsi geosiyasi, geoiqtisadi və geostrateji maraqların toqquşduğu meydana çevrilmişdi. Bu isə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsini gündəliyə gətirmişdi və sahilyanı ölkələr arasında gərgin diplomatik müzakirələrə səbəb olmuşdu.

Bu mənada 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi böyük İpək yolunun bərpası üzrə keçirilmiş Bakı Beynəlxalq Konfransı və onun nəticələri Azərbaycanın qazandığı ən mühüm nailiyyətlərindən biridir.

İlk növbədə Avropa ilə Asiyanın qovşağında çox mühüm və geosiyasi bir ərazidə yerləşən və müstəqilliyini bərpa etmiş Azərbaycanın qonşu dövlətlərlə - Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan və Türkmənistan ilə münasibətlərinin inkişaf etdirilməsi ölkəmizin xarici siyasətinin əsas prioritet istiqamətlərindən biri oldu. Həmin ölkələrlə münasibətlərdə başlıca məqsəd mehriban qonşuluq və qarşılıqlı əməkdaşlığa əsaslanan ikitərəfli və çoxtərəfli əlaqələr qurmaq idi.

Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri də Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi idi. Bu baxımdan, xarici siyasətin başlıca məqsədi Azərbaycanı müstəqil dövlət kimi tanıtmaq, beynəlxalq mövqelərini möhkəmləndirmək idi. Bu dövrdə, yalnız ikitərəfli deyil, çoxtərəfli əsasda da fəal xarici siyasət yürüdülərək Azərbaycanın beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində özünəməxsus yer tutması üçün bir sıra mühüm addımlar atıldı.

Azərbaycan Respublikasının xarici siyasət strategiyasının mühüm istiqamətlərindən biri beynəlxalq təşkilatlarla hərtərəfli əməkdaşlıq etmək idi. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycan Respublikası beynəlxalq təşkilatlarla əməkdaşlığı bütövlükdə ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görürdü.

Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb etdi. Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etmişdir.

Ümummilli Lider Heydər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi. Bu baxımdan, 1994-cü il mayın 4-də Ulu Öndər Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu.

Bununla yanaşı, Heydər Əliyevin Azərbaycan Prezidenti kimi BMT Baş Məclisinin sessiyalarında və digər yüksək səviyyədə keçirilən müxtəlif iclaslarda və çoxsaylı görüşlərdə beynəlxalq əlaqələr inkişaf etdirildi. Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə Ümummilli Lider 1994-cü il sentyabrın 29-da BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək, bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırdı. 1995-ci il oktyabrın 22-də BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən Baş Məclisinin xüsusi təntənəli iclasında çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqladı, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı təcili tədbirlərin görülməsinə və beynəlxalq səylərin artırılmasına çağırdı.

2000-ci ilin sentyabrında BMT-nin Minilliyin sammitində çıxış edən Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında əsas missiyanı öz üzərinə götürmüş bu beynəlxalq təşkilatın kürsüsündən Azərbaycanın mövqeyini bir daha dünyaya bəyan etmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır.

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanmışdır. Bu müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilir. Dövlətimiz və xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüquqi baza rolunu oynayır. Hazırda Azərbaycan Respublikası ümumavropa sisteminə inteqrasiya olunmaqla yanaşı, qitənin təhlükəsizlik arxitekturasına öz töhfəsini verərək Avropa ölkələrinin enerji təchizatının təmin olunmasında da çox mühüm rol oynamaqdadır.

Ümumiyyətlə, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə respublikamız üçün həlledici illər olmuşdur. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. O illərdə Azərbaycanın xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmiş, Azərbaycan dünya birliyinə qovuşmuşdur. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində fəal iştirak etməsi, səmərəli əməkdaşlığı ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb etmişdir.

1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, siyasi sistem möhkəmləndirilmiş və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Bu illər ərzində görülmüş işlər ölkəmizin uğurlu inkişafını şərtləndirmişdir. Həmin dövrdə başlanmış layihələr bu gün çox uğurla davam etdirilir.

Qeyd etmək lazımdır ki, XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Dünya tarixində Xocalı soyqırımı tarixi yaddaşlardan heç vaxt silinməyən Xatın, Xirosima, Naqasaki, Sonqmi, Ruanda, Srebrenitsa və Xolokost kimi dəhşətli faciələrdən heç də geri qalmır. Adıçəkilən hadisələr müharibələr tarixinə dinc əhalinin soyqırımı kimi daxil olmuş və dünyada geniş əks-səda doğurmuşdur.

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımın əsl mahiyyəti yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Bundan əlavə, ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırımı ilə əlaqədar Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Bununla yanaşı, Ümummilli Liderin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli fərmanı Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu fərmanlar təkcə tariximizin qanlı səhifələrinin öyrənilməsi və yaddaşlarda həkk olunması deyil, eləcə də erməni millətçiliyinin və terrorizminin ifşa olunması baxımından da əhəmiyyətlidir.

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu çox uğurla inkişaf etdirən Prezident İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində son 20 il ərzində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirilir.

Hazırda Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara əsaslanan xarici siyasət kursu onun Cənubi Qafqazın ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin etmişdir. Bu gün Azərbaycan yeganə ölkədir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır.

Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısının qeyd etdiyi kimi, regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz. Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Nəticədə, Azərbaycan yalnız regionda gedən proseslərdə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır.

Son 20 il ərzində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatlar ordumuzun istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının güclənməsinə zəmin yaratdı. Azərbaycan Ordusu ən müasir silahlar və texnika ilə təchiz olundu. Nəticədə, 2016-cı ilin Aprel döyüşləri - Azərbaycanın Vətən müharibəsindəki böyük hərbi qələbəsinin başlanğıcı və Ermənistanın "qüdrətli ordusu"nun yalnız mif olduğunun təsdiqi kimi tarixə düşdü.

Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısı kimi mühüm beynəlxalq platformada qətiyyətlə söylədiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" devizi bir ildən sonra, xüsusilə 44 gün ərzində reallığa çevrildi.

İkinci Qarabağ müharibəsi zamanı dövlətimiz beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini işğaldan azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməsini özü icra etdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük İkinci Qarabağ müharibəsinin nəticəsində 2020-ci ilin noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi.

2020-ci il noyabrın 8-i tariximizə ən şanlı gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Beləliklə, üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən, Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir. Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını uca tutan, Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və İkinci Qarabağ müharibəsində tarixi qələbənin əsası qoyuldu.

2023-cü il sentyabrın 19-20-də Azərbaycan apardığı lokal xarakterli antiterror tədbirləri nəticəsində həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa edərək Cənubi Qafqaz regionunda sülhün bərqərar olması üçün əsaslı zəmin yaratdı. 2023-cü il oktyabrın 15-i daha bir şərəfli gün kimi tarixə düşdü. Ali Baş Komandan, Prezident İlham Əliyev Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə və Xankəndidə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Azərbaycan dövləti İkinci Qarabağ müharibəsindən sonra əzəli torpaqlarını işğaldan azad etməklə yanaşı, 101 il əvvəl - 1923-cü ildə Qarabağda məqsədli şəkildə pozulmuş inzibati-ərazi bölgüsünü də yenidən təmin etdi. Azərbaycan Prezidentinin 2021-ci il iyulun 7-də imzaladığı fərman əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması ilə tarixi ədalət bərpa edildi.

Nəticədə, İkinci Qarabağ müharibəsi son yüz ildə şərəf və qəhrəmanlıq salnaməsi kimi Azərbaycan tarixinə yazıldı. Bu gün üçrəngli müqəddəs bayrağımız Azərbaycanın bütün işğaldan azad edilmiş ərazilərində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Ağdamda, Şuşada, Xocavənddə, Hadrutda, Ağdərədə, Xocalıda və Xankəndidə qürurla dalğalanır.

1919-cu ildən 104 il sonra - 2023-cü il noyabrın 8-də Xankəndi şəhərində keçirilən və Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad Azərbaycanın hərb tarixinə də şərəfli bir gün kimi yazıldı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi paradda çıxış edərək bildirdi ki, XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir: "Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin".

*Bütün bunlar onu deməyə əsas verir ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursu Prezident İlham Əliyevin uğurla davam və inkişaf etdirməsi, eləcə də dinamik, çoxşaxəli və milli maraqlara əsaslanaraq həyata keçirilən xarici siyasət nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin etmişdir.*

**Elçin ƏHMƏDOV,**
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, siyasi elmlər doktoru, professor***

# Azərbaycanın xarici siyasətinin uğurları

## Bu il Cənubi Qafqaza sülh gələcək

### Delimitasiya və demarkasiya prosesinə müdaxilə olmasa...

"Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesində yeni dövr başlayıb. Bu dövrün başlanğıcı Baş nazirlərin birinci müavinləri arasında keçirilmiş son görüşdən sonra Qazax rayonunun 4 kəndinin qaytarılması və sərhədlərin delimitasiya prosesinə start verilməsi ilə qoyuldu".



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Dörd kəndin ölkəmizə qaytarılması ilə bağlı Ermənistanda etiraz aksiyalarının davam etdiyini xatırladan deputat bildirib ki, aksiyalara qoşulmalar kütləvi hal almır. Maraqlısı odur ki, aksiya təşkil edənlər sərhəd kəndlərinin adamları deyil. Onlar əsasən İrəvandan gələrək aranı qarışdırmaq istəyənlərdir. Ən faciəlisi də odur ki, kilsə insanları hakimiyyətə qarşı aksiyalara çağırır, o cümlədən keşiş Baqrat Qalstanyan aksiyalara başçılıq edir. Həm də Qaregen Koçaryanla görüşlər keçirir və planlar cızır. Din xadimləri əsasən müharibələrə qarşı olmalı, sülhdən və dostluqdan bəhs etməlidirlər. Ermənistanda isə bunun əksinədir, dini liderlər insanları müharibələrə sürükləyir və düşmənçilik toxumu səpərək çirkin niyyətlərini həyata keçirməyə çalışırlar.

"Təbii ki, kilsənin bu hərəkətləri xarici sifarişlərin icrasıdır. Bu sifariş Paşinyanın hakimiyyətdən devrilməsinə istiqamətlənib. Kilsə radikal müxalifətlə birləşərək bu məsələni reallaşdırmaq istəyir. Kilsənin və radikal müxalifətin bütün cəhdlərinə baxmayaraq, sadə erməni əhalisi arasında aparılan rəy sorğularında ermənilər müharibə istəmədiklərini, qaytarılan ərazilərin heç vaxt Ermənistana məxsus olmadığını və sülh sazişinin imzalanmasını dəstəklədiklərini bildirirlər", - deyə o əlavə edib.

A.Badamov qeyd edib ki, Ermənistanda baş verən daxili narazılıqlara baxmayaraq, Paşinyan hakimiyyəti Azərbaycanla münasibətlərin normallaşmasının alternativi olmadığını başa düşür. Ona görə də 4 kəndimiz özümüzə qaytarılır və sərhədlər delimitasiya olunur. Dörd kəndin qaytarılması prosesinə start verilməsi 12 kilometrə qədər sərhəd xəttinin delimitasiya olunmasıdır. Proses davam etdkcə iki ölkə arasında sərhəd xətti müəyyənləşəcək və dövlət sərhədi sərhədçilər tərəfindən qorunacaq.

Deputat bildirib ki, sərhədlərin delimitasiya prosesinin uğurla davam etməsi iki ölkə arasında münasibətlərin də normallaşmasına xidmət edəcək. Eyni zamanda ölkələrimiz arasında sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar prosesinin də sürətləndirilməsini aktuallaşdırır. Yaxın vaxtda Qazaxıstanda XİN rəhbərlərinin görüşünün baş tutacağı da gözlənilir. Proseslərin sürətlənməsi ölkələrarası razılaşmaların əldə olunmasından irəli gəlir. Ölkələrimiz arasında, demək olar ki, fikir ayrılıqları qalmayıb və əsas məsələlər üzrə razılaşmalar əldə olunub".

Deputat hesab edir ki, kənar oyunçular iki ölkə arasında uğurla davam edən sülh danışıqları prosesinə müdaxilə etməzsə, bu il Cənubi Qafqaza sülh və əməkdaşlığın gəlişi gözlənilir. Bu il ölkəmizdə keçiriləcək COP29 beynəlxalq konfransına qədər Azərbaycanla Ermənistan arasında sülhlə bağlı sənəd imzalanarsa, bu, çox böyük bir hadisə olacaq. Bu hadisə həm də dünyada davam edən münaqişələrin sonlandırılması üçün də bir nümunə ola bilər. Bizdən asılı olmayan səbəblərə görə Azərbaycanla Ermənistan arasında davam edən uzunmüddətli münaqişədən insanlar da yorulub. Bu münaqişə birdəfəlik tarixin arxivinə göndərilərsə, ölkələrimizin inkişafı sürətlənər və təhlükəsizliyi daha da möhkəmlənər. Digər tərəfdən, münaqişənin və ziddiyyətlərin davam etməsi ordu xərclərinin artmasını tələb edir. Müharibə riski qalmazsa, hərbiyə ayrılan xərclərin bir hissəsini insanların rifahının yaxşılaşdırılmasına və iqtisadiyyatın digər sahələrinin inkişafına yönəltmək olar. Cənubi Qafqaz tarixən müharibələrin və münaqişələrin davam etdiyi bir region olmuşdur. Əgər yanaşma düzgün olsa, indi bu region dünyanın ən sabit və təhlükəsiz məkanına çevrilə bilər.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Qafqazın gündəmini İLHAM ƏLİYEV müəyyən edir



*Əvvəli 1-ci səh.*

Yerləşdiyimiz coğrafiyada Gürcüstan və Ermənistan kimi ölkələr də mövcuddur. Amma bu gün hər iki ölkədə yaşanan siyasi mənzərə heç də arzuolunan deyil. Görünən odur ki, bu gün Qərbin Gürcüstanda tətbiq etdiyi ssenari bu ölkəni Ukraynaya çevirmək niyyəti güdür. Məhz bu səbəbdən də Gürcüstan hökuməti mövqeyində haqlıdır. Ona görə ki, eyni ssenari 2004-cü ildə Gürcüstanda artıq tətbiq olunmuşdu. Hakimiyyətə gətirilmiş dövlət başçısına yalan vədlər verilərək ölkə 2008-ci ildə Rusiya ilə qarşıdurmaya sürükləndi. Nəticədə Cənubi Osetiya və Abxaziya itirildi. Rusiya qoşunları isə Tbilisinin yaxınlığına gəlib çatdılar. Qərb Gürcüstanın yenə də arxasında dayanmadı və nəticədə uduzan Gürcüstan cəmiyyəti oldu. Bu olaylar ABŞ başda olmaqla Qərbin gürcü xalqına qarşı təxribatı idi. İndi bu təxribatın yenidən təkrarlanmasına cəhd göstərilir. Ancaq 2004-cü ildən fərqli olaraq, gürcü xalqı təhlükəni görür və avantüraya getmir.

Eriraf etməliyik ki, bu cəhdlər, araqarışdırma oyunları Azərbaycana qarşı da həyata keçirilib. Amma bütün cəhdlər bumeranq effekti verib. Bunun yeganə səbəbi də Azəraycanda xalq-iqtidar birliyinin əzəmətidir. Bu gün Gürcüstan da məhz Azərbaycandan ruhlanaraq qəti mövqe nümayiş etdirməyə başlayıb.

Qərb başa düşür ki, Azərbaycanın mövqeyi olmadan və maraqları nəzərə alınmadan regionda hər hansı uğura nail olmaq mümkün deyil. Yaxşı bilirlər ki, Azərbaycan istəməzsə, bu regionda ayaq aça bilməyəcəklər. Bu gün Bakıya təzyiqlər heç bir nəticə vermir və verməyəcək, sanksiyaların heç bir nəticəsi olmayacağını anlayaraq bu addımdan da geri çəkiləcəklər.

Aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda İlham Əliyev bir daha Azərbaycana qarşı olan təhdidlərdən söz açaraq regionla bağlı bəzi dairələrin hansı məkrli oyunlar oynadıqlarını dünyaya bəyan edib. Prezident konkret olaraq bildirib ki, bu gün bəzi ölkələrdən Azərbaycana qarşı əsassız hücumlar var. Bunun müqabilində də Azərbaycan cavab tədbirləri görməyə bilməz. Çünki heç bir təhdid, hədə-qorxu Azərbaycanı qorxutmur. Hər bir təxribata, təzyiqə cavab verməyə yetərincə gücümüz var. Lazım olarsa diplomatik yolla, lazım gələrsə güc yolu ilə...

Həmin ölkələrin, əslində, Azərbaycana qarşı soyuq müharibəyə başladıqlarını vurğulayan dövlət başçısı bildirib ki, ölkəmiz tam eyni tədbirləri görür və qırmızı xətləri keçmir. Bu gün həmçinin Cənubi Qafqazda ayırıcı xətlər çəkmək üçün bəzi cəhdlər göstərilir.

Ancaq Qərb yaxşı bilir ki, artıq Cənubi Qafqazın gündəmini İlham Əliyev müəyyənləşdirir. Qalib dövlət kimi sülhə hazırlıq prosesini başladan və artıq son prosesə yaxaınlaşan Azərbaycan Ermənistanla barış sazişi imzalamağa yaxındır. Bu işdə vasitəçilik etmək istəyənlərin artıq olmaması prosesin reallaşmasını daha da yaxınlaşdırıb. İndi hər kəsə bəlli olub ki, "vasitəçilik" etmək istəyənlərin əsl məqsədi Azərbaycanla Ermənistan arasında sülhün əldə olunmaması idi.

Prezident İlham Əliyev də beynəlxalq forumda hər kəsin diqqətinə həqiqəti çatdıraraq deyib ki, bu gün sülh sazişinin imzalanmasına heç vaxt olmadığı qədər yaxınıq. İşğal zamanı buna heç vaxt bu qədər yaxın olmamışıq. Dövlət başçısı hətta COP29-dan əvvəl Azərbaycanla Ermənistan arasında razılaşmanın, ən azı baza prinsipləri ilə bağlı razılaşmanın əldə olunmasının tamamilə real göründüyünü deyib: "Hesab edirəm ki, baza prinsipləri ilə bağlı razılığa gəlmək və sonra məzmunun təfərrüatlarına daha çox vaxt ayırmaq da bir variantdır. Lakin hətta layihə hazır olsa da, düşünürəm ki, bunun üçün hər iki tərəf gərgin işləməli və ola bilsin, görüşləri bir gün deyil, bir neçə gün keçirməlidir".

Ümumiyyətlə, bu gün Azərbaycanda ciddi və ya potensial qaydada yarana biləcək hər hansı risk yoxdur. Üzləşə biləcəyimiz yeganə potensial risklər isə xaricdən gələ bilər. Bu səbəbdən də Prezidentin dediyi kimi Azərbaycan düşünülmüş siyasət yürütməyə məcburdur. Belə ki, risklərlə üzləşməmək üçün qapılarımız hərc-mərclik yaradanların üzünə bağlı, sadiq qonaqlarımızın üzünə isə açıq olmalıdır.

Dövlət başçısı misal kimi hazırda quru sərhədlərin müəyyən dövrdə bağlı qalmasından sonra Azərbaycanda təhlükəsizliyin gücləndiyini göstərib: "Biz kənardan gələn ciddi təhdidlər və problemlərlə üzləşmişdik. Bizim bütün potensial risklərimizin kənardan gəldiyini söylədikdə mən bunu nəzərdə tuturdum".

Bu gün Qafqaz qlobal miqyasda hadisələrin sürətlə inkişaf etdiyi bölgədir. İlham Əliyev də bunu nəzərə alaraq proseslərin düzgün məcraya yönəldilməsi üçün proaktiv olmağın vacibliyini vurğulayaraq yeni məsləhətləşmə formatı yaratmağı təklif edib. Bu format Cənubi Qafqazda ancaq təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə xidmət edə bilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Azərbaycanda etibarlı sabitlik mühiti hökm sürür

"Milli dövlətlərin siyasi sabitliyi və iqtisadi inkişafı təmin etmələri daha çox strateji əhəmiyyət kəsb edir. Bu kontekstdə ölkəmizin təcrübəsi müsbət və mütərəqqi nümunə kimi diqqəti cəlb edir. Qlobal miqyasda hökm sürən mürəkkəb şəraitdə Azərbaycan ictimai-siyasi sabitliyin təmin olunduğu, pozitiv beynəlxalq imic qazanan ölkələr sırasında aparıcı yerlərdən birini tutur".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat söyləyib ki, "Azərbaycan beynəlxalq müstəvidə güclü və nüfuzlu, ictimai-siyasi sabitliyin və davamlı inkişafın təmin olunduğu dövlət kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında müasir çağırışlara, milli maraqlara uyğun reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Milli inkişaf modelinin uğurla tətbiq olunması və hədəflənən nəticələrin əldə edilməsi, siyasi, hüquqi və sosial-iqtisadi islahatların davamlı olaraq həyata keçirilməsi, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətlə irəliləməsi müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir".

Sevinc Fətəliyeva bildirib ki, müasir dövrdə qloballaşma şəraitində dünyanın bir sıra bölgələrində mürəkkəb proseslər baş verir: "Bəzi ölkələrdə maliyyə-iqtisadi və siyasi böhran hallarına rast gəlinir. Xüsusilə, müxtəlif regionlarda münaqişələrin, müharibələrin mövcud olması qlobal kataklizmlərin mövcudluğundan xəbər verir. Ətraf, yaxın regionlarda da belə mürəkkəb vəziyyət müşahidə olunur. Belə gərginlik isə siyasi kataklizmlərin dərinləşməsini şərtləndirir ki, bu da nəticə etibarilə, həm inteqrasiya və əməkdaşlığı zəiflədir, həm də siyasi münasibətlərdə müəyyən qədər etimadsızlıq mühitinin, ziddiyyətlərin artmasına səbəb olur. Bu vəziyyətdə Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunması mühüm əhəmiyyətə malikdir".

Deputatın sözlərinə görə, bu gün Azərbaycan, sözün əsl mənasında, sabitlik adası kimi xarakterizə olunur. Ölkəmizin milli gücünü artıran əhəmiyyətli amillərdən biri də möhkəm təməllərə söykənən ictimai-siyasi sabitlikdir. Azərbaycanda mövcud olan sabitliyin əsasında duran başlıca faktor hakimiyyətin həyata keçirdiyi siyasi kursun milli maraqlara tam cavab verməsidir. Bütövlükdə, Azərbaycan əhalisinin layiqli həyat şəraitinin təmin edilməsində, sosial rifahının yaxşılaşdırılmasında, inkişafın davamlı olmasında mühüm rol oynayan amillərdən biri etibarlı təhlükəsizlik və sabitlik mühitidir. Təsadüfi deyil ki, beynəlxalq reytinq agentliklərinin hesabatlarında da ölkəmizdə hökm sürən etibarlı sabitlik mühiti öz əksini tapır və yüksək qiymətləndirilir.

Sevinc Fətəliyeva bütün bunlarla yanaşı, ölkəmizin milli təhlükəsizliyinin yüksək səviyyədə təmin edildiyinə də diqqət çəkib. Deyib ki, siyasi, iqtisadi, hərbi, sosial, ekoloji və digər istiqamətlərdə təhlükəsizliyin təmin olunması strateji maraqların gerçəkləşməsinə və inkişaf dinamikasının davam etməsinə əlverişli şərait yaradıb: "Şübhəsiz, hər bir ölkənin milli təhlükəsizliyi müxtəlif istiqamətlərdə təhdidlərin neytrallaşdırılmasından və neqativ faktorlarla mübarizə metodlarının düzgün müəyyənləşdirilməsindən asılıdır. Ölkəmizdə milli təhlükəsizliyin təmin olunmasına konseptual yanaşma mövcuddur və təhdid ünsürləri effektiv vasitələrlə neytrallaşdırılır".

Deputat vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasının kökündə ölkəmizdəki sabitlik və İlham Əliyev siyasətinin xalqımız tərəfindən birmənalı olaraq dəstəklənməsi dayanır: "Xalq-iqtidar birliyi uğurlarımızı şərtləndirən başlıca amillər sırasındadır. İctimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da ölkəmizdə vətəndaşların Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiklərini, xalq-iqtidar birliyinin sarsılmaz təməllərə söykəndiyini göstərir".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Azərbaycan yaddaşlarda həm də dinlərin qovuşduğu ölkə kimi qalacaq

Din bütün tarixi dövrlərdə mövcud olan cəmiyyətlərin əxlaqi-mənəvi dəyərlər sisteminin ayrılmaz tərkib hissəsi kimi qiymətli olmuş və olmaqda da davam edir. "Sivilizasiyalar toqquşmasının" hökm sürdüyü müasir dövrümüzdə müxtəlif dinlərin mənsublarına dözümlülük nümayiş etdirmək olduqca zəruri göstəricidir.

Dünya birliyi tərəfindən dinlərə hörmət bəsləmək, ehtiram göstərmək kimi önəmli bir dəyər cəmiyyətin bütövlüyünün əsas şərtlərindən biri olaraq qəbul edilmişdir. Bu gün insanlara dini dözümlülük xüsusiyyətlərini aşılamaq nəinki ayrı-ayrı dövlətlərin, eləcə də beynəlxalq təşkilatların vəzifələrindən birinə çevrilmişdir.

"Dini etiqad azdlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ölkə vətəndaşlarının dinə öz münasibətini bildirmək və ifadə etmək azadlığını təsbit edir, onların dinə münasibətlərindən asılı olmayaraq, hüquq bərabərliyini təmin edir. Qanun müstəqil Azərbaycan Respublikasında dini qurum və icmaların fəaliyyətinə, dini etiqad azadlığı ilə əlaqədar vətəndaşların və dini qurumların hüquqlarına, dini qurumların dövlət orqanları ilə münasibətlərinə dair məsələlərin tənzimlənməsi üçün əsas hüquqi sənəddir.

Bu il mayın 1-3-ü tarixlərində ölkəmizin paytaxtında VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. "Sülh və Qlobal Təhlükəsizlik Naminə Dialoq: Əməkdaşlıq və Qarşılıqlı Əlaqələr" mövzusunda keçirilən bu muhum tədbirdə dünyanın müxtəlif ölkələrindən gəlmiş ümumilikdə 700 qonaq iştirak edirdi. 110-dan çox ölkəni təmsil edən iştirakçılar arasında müxtəlif ölkələrdən gəlmiş din xadimləri də var idi. Din xadimlərinin də forumda iştirak etməsi ölkəmizdə onlara göstərilən diqqət və qayğının, verilən yüksək dəyərin təzahürü idi.

Forumda çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev din xadimlərinin dünyadakı və cəmiyyətdəki rolunu yüksək qiymətləndirərək demişdir: "Azərbaycana gəldikdə, mədəniyyətlərarası dialoq elə bir məfhumdur ki, biz onu güclü şəkildə təşviq edirik. Ölkəmizdə çoxsaylı tədbirlər təşkil edirik. Bunlar dinlərarası dialoqla bağlıdır. Müzakirələrin bir hissəsi olaraq məhz bunu Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində həyata keçiririk və digər tədbirlərdə bu məsələyə toxunuruq. Bununla bağlı xüsusi müzakirə sessiyası və COP29 tədbiri də olacaqdır. Bu dialoq məsələsi orada da müzakirə olunacaqdır. Əminəm ki, bütün dünyadan gələn bu sahə üzrə rəhbərlər bu gün Bakıda həmrəylik nümayiş etdirəcəklər və liderlik göstərəcəklər. Çünki dini nümayəndələrin rolu dünyada bütün xalqlar üçün vacibdir və onlar həmin rəhbərlərdən sülh, tolerantlıq, qarşılıqlı hörmət kimi müsbət mesajları eşitməlidirlər. Bunlar çox vacib amillərdir. Əfsuslar olsun ki, biz bəzi hallarda fərqli mesajları da eşidirik və bu da əlavə gərginlik yaradır. Bir sözlə, düşünürəm ki, bu istiqamətdə müsbət tendensiyalar güclü şəkildə dəstəklənməlidir".

VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində mayın 1-də dini liderlərin Bakı görüşü də keçirilib. Müxtəlif dinləri təmsil edən liderlər dünyamızda sülh və dialoq naminə bir araya gəliblər. Dünyanın 30-dan çox ölkəsindən dini liderlərin qatıldıqları tədbirdə dinlərarası dialoq vasitəsilə etimadın möhkəmləndirilməsi, dindən sui-istifadə olunması hallarının qarşısının alınmasında birgə səylərin artırılması, müasir dünyanı, sülhü və əmin-amanlığı təhdid edən amillərə, xüsusilə müharibələrə, qarşıdurmalara, dinlərarası ixtilaflara qarşı müxtəlif sivilizasiyaların və dinlərin nümayəndələrinin birgə mövqeyi, iqlim dəyişikliyi və ekoloji böhran problemlərinə dinlərin münasibəti, media və sosial şəbəkələrdə nifrətə çağırışlara qarşı mübarizədə dini liderlərin, ictimai və siyasi xadimlərin birgə fəaliyyəti və digər məsələlər müzakirə olunub, çağırışlar edilib, təkliflər səsləndirilib. Dini liderlər çıxışları zamanı dünyamızda əmin-amanlığın və sülhün təmin olması üçün fikirlərini bildiriblər, rəylərini söyləyiblər.

Görüşdə çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Mədəniyyətlərarası Dialoq Forumu Prezident İlham Əliyevin təşəbbüsü ilə dünyanın nüfuzlu beynəlxalq qurumları - UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, ICESCO və Dünya Turizm Təşkilatını tərəfdaş kimi cəlb edən yeganə platformadır. Azərbaycan Prezidentinin müəllifi olduğu, 2008-ci ildən mədəniyyətlərarası dialoqun inkişafını nəzərdə tutan "Bakı Prosesi" beynəlxalq ictimaiyyəti narahat edən humanitar problemlərin dövlət rəsmiləri, ictimai-siyasi xadimlər, dini liderlər, nüfuzlu alim və ekspertlər arasında səmərəli fikir mübadilələrinin aparılmasına əlverişli imkan yaradıb.

Beynəlxalq İslam Xeyriyyə Fondunun Prezidenti Abdulla Əl Mətuq vurğulayıb ki, dünyada sülhün qurulmasına ciddi ehtiyac var. Qeyd edib ki, bəzi ölkələrdə yaşanan aclığın, yoxsulluğun aradan qaldırılması məqsədilə ciddi şəkildə müzakirələr aparılmalı, onların həlli üçün dialoq kanalları qurulmalıdır.

Türkiyənin Diyanət İşləri üzrə Komitəsinin Strateji inkişaf departamentinin sədri Mustafa Ermaklı bildirib ki, dünyada sülh və sabitliyin bərqərar olması üçün haqsızlığa, ədalətsizliyə qarşı mübarizə aparılması əsas şərtdir.

VI Bakı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində dini liderlər işğaldan azad olunmuş ərazilərimizə səfərlər də ediblər. Onlar səfərləri zamanı ermənilərin dini abidələrimizi necə vəhşicəsinə dağıtdıqlarının canlı şahidi olublar. Din xadimlərinin Şuşa görüşü keçirilib. Görüşdə yekdilliklə Şuşa Bəyannaməsi qəbul edilib. İştirakçılar Prezident İlham Əliyevin müəllifi olduğu "Bakı Prosesi"ni alqışlayaraq, cari ilin noyabrında ölkəmizdə keçiriləcək COP29-un uğurla təşkil ediləcəyinə əminiklərini bildiriblər.

Üç gün davam edən forum bir daha dünyaya göstərdi ki, Azərbaycan dinlər və mədəniyyətlərarası dialoqa, tolerantlığa böyük önəm verir. Ölkəmizin əldə etdiyi bu uğurlar beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan forum iştirakçılarının yaddaşında həm də müxtəlif dinlərin qovuşduğu bir məkan kimi qalacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Sərhədsiz saxtakarlıq

### Qərbin vermək istədiyi yalnız xaos və idarəolunan münaqişələrdir

"Gürcüstanda "Xarici agentlər haqqında" qanun layihəsi artıq ikinci oxunuşda qəbul olunub. Etiraz aksiyalarının təşkil olunmasına baxmayaraq, Gürcüstan parlamenti qanun layihəsini sonadək dəstəkləmək iradəsini nümayiş etdirir. Bununla Gürcüstan göstərir ki, o, öz maraqlarına cavab verən, hazırkı reallıqlar şəraitində doğru bildiyi addımları atmaq niyyətindədir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, ABŞ başda olmaqla Qərb dairələri Gürcüstana qarşı siyasi hücumlar həyata keçirirlər. Gürcüstanda davam edən aksiyaların təşkilatçısı rolunda ABŞ-nin və Avropa ölkələrinin dayandığı özləri tərəfindən də dolayısı ilə etiraf olunur. Yəni Amerika rəsmilərinin dilindən səslənən fikirlər, xüsusilə də Ceyms O'Brayn Gürcüstan baş nazirinə qanun layihəsinə birgə baxmağı və ondan buna reaksiya verilmədiyini açıq şəkildə bildirib. Məhz bunun hazırda Gürcüstanda etiraz aksiyaları keçirildiyinə işarə verməsi artıq ABŞ, Qərbin çəkinmədən, heç bir mənəvi hisslər çərçivəsini tanımadan başqa ölkələrin daxili işlərinə müdaxilə etdiyini nümayiş etdirir. Yəni başqa ölkələrin daxili işlərinə bu dərəcədə qarışmaq və bunun fonunda başqa xalqlara, ölkələrə guya demokratiya, insan hüquqları ilə dəstək olmaq istəyini nümayiş etdirmək sərhədsiz riyakarlıq, saxtakarlıqdır. "Biz bunu bu gün Gürcüstanda baş verən hadisələrlə bağlı ABŞ-nin davranışlarında müşahidə edirik. Bir qayda olaraq ABŞ ayrı-ayrı ölkələrin həm maddi, həm insani resurslarından öz geosiyasi rəqiblərinə qarşı istifadə edir, daha doğrusu, xərcləyir. Bununla da o ölkələri göz önündə məhv edir. Ukraynada baş verənlər növbəti dəfə nümayiş etdirdi ki, ABŞ və Qərb müxtəlif ölkələrin ərazilərini geosiyasi rəqiblərinə, yəni Rusiyaya qarşı döyüş meydanına çevirir. Özləri də sadəcə olaraq kənardan müşahidə etmirlər, eyni zamanda maraqlarını həyata keçirirlər. Ukraynaya ayrılan pulların xərclənmə istiqamətləri ilə bağlı müxtəlif versiyalar mövcuddur. Şəffaflıq çox ciddi sual altındadır. Onlar münaqişələrə həm də çirkli pulları yumaq mexanizmi kimi baxırlar. Ona görə də ayrı-ayrı coğrafiyalarda çoxsaylı silahlı qarşıdurmaların baş verməsində maraqlıdırlar", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, ABŞ guya Gürcüstana azadlıq istəyir, amma, əslində, bu ölkənin azadlığa qovuşmaq istədiyi üçün qəbul etməyə çalışdığı qanuna qarşı çıxır. Bir sıra postsovet ölkələrində Qərb tərəfindən törədilən rəngli inqilablar nəticəsində marionet siyasi rejimlər formalaşdırılıb. Bu rejimlər Qərbin təlimatları əsasında öz fəaliyyətlərini qurublar. Ölkəsinin həm iqtisadi, həm siyasi potensialını o rejimləri formalaşdıran dairələrin maraqları üçün sərf edirlər və nəticədə özləri çox böyük zərər görürlər. Məsələn, 2003-cü ilin sonunda Gürcüstanda məhz belə rəngli inqilab təşkil olunmuşdu. Yeri gəlmişkən, həm Gürcüstanda, həm Ukraynada, həm də Qırğızıstanda rəngli inqilab törədən qrupların siması eyni idi. Yəni eyni mobil qruplar ölkədən-ölkəyə səfərlər edərək orada rəngli inqilabları təşkil edirdilər. Qərbdə bu istiqamətdə işlək mexanizmlər mövcuddur və bu gün Gürcüstanda da eyni ssenari yenidən təkrarlanmaqdadır, buna ciddi cəhd göstərilir.

E.Mirbəşiroğlu vurğulayıb ki, Saakaşvilinin hakimiyyəti illərində Gürcüstanın bir sıra nazirləri, xüsusilə də xarici işlər naziri öz maaşını Fransadan alıb: "Yəni başqa ölkədən maaş alan məmur öz ölkəsinə xidmət edə bilərmi? Sualın cavabı çox aydındır. Gürcüstan, demək olar ki, Qərbdən tam asılı vəziyyətə salınmışdı. Bəs Avropa İttifaqına inteqrasiya istiqamətində Gürcüstan nə qazandı? Heç bir şey. Təxminən yarım milyondan artıq gürcü Avropanın müxtəlif ölkələrinə üz tutdu və orada hansısa böyük uğurları ilə gündəmə gəlmədilər".

ABŞ, Qərb Gürcüstandan yaxın qonşusu olan Rusiya ilə düşmən münasibətində olmasını istəyir. Amma Gürcüstanla Rusiya iqtisadiyyatı bir-birinə sıx bağlıdır. Rusiyada çox sayda gürcülər yaşayır, işləyir və Gürcüstandakı yaxınlarına vəsait göndərirlər. Avropa bunu əvəz edəcək heç bir şey təklif edə bilmədiyi halda Gürcüstandan özünü qurban verməyi tələb edir. Hazırda 25 minə qədər qeyri-hökumət təşkilatı başda ABŞ olmaqla müxtəlif Avropa ölkələrindən, dairələrindən maliyyə vəsaitləri alır və onların göndərdiyi təlimatları yerinə yetirirlər. Qərb vəsaiti heç vaxt boşuna xərcləmir. Qərbin müxtəlif coğrafiyalarda, ölkələrdə insan hüquqları və demokratiyaya dəstək istəkləri saxtakarlıq və riyakarlıqdan başqa bir şey deyil. Biz bunu Suriyada, Liviyada, müxtəlif ərəb ölkələrində gördük. Normal həyat şəraitinə malik olan bu ölkələrdə bu gün bütün mənalarda həyat iflic vəziyyətindədir. Qərbin vermək istədiyi xaos, idarə olunan münaqişələr, qarşıdurmalardır. Bunu artıq 500 ildən artıqdır ki, bütün dünya müşahidə edir. Çox təəssüf ki, Qərb bu cür iyrənc, təhlükəli mexanizmləri ilə dünyanı hələ də yönləndirə bilir.

Deputat bildirib ki, Qərbin müdaxilə cəhdlərinə qarşı dayanmaq gücündə, iradəsində olan dövlətlər də var və bu ölkələr içərisində də ən barizi, gözəçarpanı Azərbaycandır. "Azərbaycan nümayiş etdirdi ki, hər addımında müstəqildir, milli maraqlarına xidmət edən mövqe sərgiləyir, siyasət yürüdür. Bütün siyasi hücumlara, qərəzli formalaşdırılan mövqelərə baxmayaraq, müstəqil addımlar atır. Hətta Qərbin neokolonializm siyasətinə qarşı açıq mübarizə platformasını formalaşdırır. Azərbaycan Prezidenti bəyan etdi ki, biz bundan sonra neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında daha yaxından yer alacağıq. Yəni Azərbaycan göstərir ki, Qərbin bu müdaxilələrinə qarşı mübarizə aparıb, nəticə əldə etmək olar".

Müsahibimiz hesab edir ki, bu gün Azərbaycan Gürcüstan üçün ən yaxşı nümunədir. Amerika Birləşmiş Ştatları 1938-ci ildə qəbul etdiyi "Xarici maliyyələşmələr haqqında" qanunun bu gün Gürcüstanda qəbul olunmasına qarşı çıxır və burada da çox aşkar bir paradoksallıq görünür. Qərb xalqın etirazını artırmaq üçün bu layihəni Rusiya qanunu adlandırır. Bu cür yanaşma, mexanizmin tətbiq olunması Gürcüstandakı etiraz aksiyalarının Qərb tərəfindən təşkil və idarə olunduğunu aydın nümayiş etdirir.

Deputat düşünür ki, gürcü xalqı baş verənlərə ayıq gözlə baxmağı artıq öyrənib. Saakaşvili hakimiyyətə gələndə Gürcüstan cəmiyyətinə guya demokratiya, azadlıq gətirmək istəyirdi. Amma bir qrup insanın marağı istiqamətində fəaliyyət quruldu və gürcü xalqı özü də Saakaşviliyə etimadsızlıq nümayiş etdirdi. Bunu gürcü xalq etdi və bu xalq yenə də öz iradəsini nümayiş etdirə biləcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Qərb Ukrayna ssenarisini indi də Gürcüstanda işə salıb

Qərbin müxtəlif ölkələrdə yürütdüyü dağıdıcı siyasətin təzahürləri hazırda Gürcüstanda yaşanan və belə getsə, nəticələri daxili parçalanmaya gətirib çıxaracaq çalxalanmanın fonunda açıq şəkildə görünür. Qonşu ölkədə etiraz aksiyaları səngimək bilmir və hər ötən gün hadisələr daha da alovlanaraq nəzarətdən çıxır. Qərbin QHT, KİV və digər adlar altında ölkədə bəslədiyi əlaltıları vasitəsilə qızışdırıcı ritorika həyata keçirməsi faktiki olaraq Gürcüstan cəmiyyətini iki qütbə bölüb.



### Cənubi Osetiyanın və Abxaziyanın itkisinə səbəb olan avantüra

Bütün bunlar Qərbin Ukraynanı fəlakətə sürükləyən eyni ssenarini Gürcüstanda da tətbiq etdiyini, ölkənin hərbi poliqona çevrilməsi, xaosa sürüklənməsi üçün dəhşətli planlar cızdığını ortaya qoyur.

Hər kəs xatırlayır ki, Qərb hələ 2004-cü ildə Gürcüstan xalqının milli maraqlarını ayaqlar altına ataraq, ərazilərinin itkisi kimi faciəvi hala səbəb olmuşdu.

Qərbin Saakaşviliyə yalan vədlər verərək onu 2008-ci ildə Rusiya ilə qarşıdurmaya sürükləməsi nəticəsində Cənubi Osetiya və Abxaziya itirildi. Rusiya qoşunları isə Tbilisinin bir neçə kilometr yaxınlığına gəlib çatdı. Yəni planlaşdırıldığı kimi, Rusiya nəinki Gürcüstandan uzaqlaşdı, hətta onun düz burnunun ucuna gəlib yerləşdi. Saakaşvilini bu avantüraya sürükləyən Qərb isə onun arxasında dayanmadı və uduzan ümumilikdə Gürcüstan cəmiyyəti oldu.

Yaxın keçmişdə həyata keçirilən bu faciəvi ssenari üzrə baş verənlər başda ABŞ olmaqla, Qərbin gürcü xalqına qarşı təxribatı idi. Hazırda da buna yenidən cəhd edilir. Ancaq 2004-cü ildən fərqli olaraq, bu dəfə gürcü xalqı təhlükəni görərək, Qərbin təzyiqlərinə dirənc göstərir.

Bildirək ki, Gürcüstanın hakim "Gürcü Arzusu" partiyası ötən il "Xarici agentlər haqqında" qanun layihəsini qəbul etmək istəmiş, lakin iğtişaşlar səbəbindən onu ləğv etmək məcburiyyətində qalmışdı. Bu il isə həmin qanun layihəsinin "Xarici təsirin şəffaflığı haqqında" adı ilə yenidən parlamentə təqdim edilməsi Tbilisidə kütləvi etirazlara səbəb olmuşdu. Qərbyönümlü partiya, QHT, KİV təmsilçiləri hazırda bu qanun layihəsinin ləğvinə nail olmaq üçün aksiyalar keçirirlər. Lakin Gürcüstan hökuməti bu qanunun qəbulu ilə bağlı qərarlılıq göstərir və təbii ki, öz mövqeyində haqlıdır.

Hadisələrin gedişatı göstərir ki, məhz Gürcüstan hakimiyyəti Qərbin məkrli niyyətini illər əvvəl görüb üzə çıxarmadığı, qurduğu şəbəkəni çökdürmədiyi üçün hazırda bu cür çətin vəziyyətlə üz-üzə qalıb. Bu boşluqdan məharətlə istifadə edən Qərb isə Gürcüstanda fəaliyyət göstərən 25 minə yaxın QHT-nin əksəriyyətini maliyyələşdirir. Bu sayədə də asanlıqla həmin QHT-ləri öz iradəsinə uyğun idarə edir. Qərbin Gürcüstan cəmiyyətini ələ aldığı ruporlar vasitəsilə aşındırması narkomaniyanın artmasına, milli-mənəvi dəyərlərin laxladılmasına, cinsi azlıqlar hərəkatının geniş vüsət almasına və digər bu kimi arzuolunmaz hallara səbəb olub.

### Rəngli inqilablar xalqları qaranlığa sürükləyir

Ümumilikdə, xaricdən məqsədyönlü şəkildə inkişaf etdirilən bu tendensiya nəticədə Gürcüstanın müstəqil dövlət olaraq hansısa qərarlar, qanunlar qəbul etmək hüququna belə imkan verməyəcək şəraitin yetişməsinə gətirib çıxarıb. Diqqət edin, Qərb həm özü açıq şəkildə, həm də daxildə formalaşdırdığı şəbəkə hesabına Gürcüstanın daxili işinə qarışır, ona təzyiqlər göstərir. Barmağının bir işarəsi ilə ölkəni aksiyalar, qarşıdurmalar meydanına çevirir.

Bir sözlə, Qərb rəngli inqilab, ərəb baharı kimi dəbdəbəli adlarla təqdim etdiyi və nəticəsi xalqları qaranlığa sürükləyən ənənəvi ssenarisini bu dəfə də Gürcüstanda həyata keçirməyə çalışır.

Diqqətçəkən başqa bir məqam isə "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsinin ABŞ və bəzi Avropa dövlətlərinin sərt təpkisinə səbəb olmasıdır. Belə ki, onlar bu qanun layihəsinin əsl mahiyyətinin üstünü vurmayaraq, fərqli formada təqdim edir, guya qanun qəbul olunarsa, Gürcüstanda demokratiyanın çökəcəyi görüntüsü yaradırlar. Buna görə də həmin qanunun qəbul olunmaması üçün Gürcüstan hökumətinə təzyiqlər göstərirlər.

Baxmayaraq ki, müvafiq qanun dünyada ilk dəfə 1938-ci ildə ABŞ-də qəbul olunub, Aİ-də də bununla bağlı müvafiq hüquqi aktlar qüvvədədir. Amma eyni qanunun digər ölkələrdə qəbulu, yaxud buna cəhd edilməsi yolverilməz hesab olunur.

### Qərb bölgədən qovulur

Gürcü cəmiyyətinin müqaviməti illər öncə Azərbaycanın başlatdığı ABŞ-nin və Qərbin regiondan qovulması prosesinin davamıdır.

2010-cu ildən başlayaraq ABŞ-nin Azərbaycandakı şəbəkəsinin fəaliyyəti məhdudlaşdırıldı, QHT-lərin maliyyə fəaliyyətini şəffaflaşdıran qanunlar qəbul olundu və xaricdən maliyyələşmə prosesi nəzarətə götürüldü...

Məhz bu tədbirlərin nəticəsidir ki, Qərbin Azərbaycan cəmiyyətini parçalamaq niyyəti heç zaman alınmadı, ölkəmizin daxili işlərinə qarışmaq kimi cəhdlərinə imkan verilmədi. Azərbaycanın Vətən müharibəsində qələbə qazanması və suverenliyini bərpa etməsi isə Cənubi Qafqazda bambaşqa reallıqlar yaratdı. Bu gün ABŞ də, Qərb də yaxşı anlayır ki, Azərbaycanın mövqeyi olmadan və maraqları nəzərə alınmadan regionda hər hansı uğura nail olmaq mümkün deyil. Bakı qərəzli Qərb siyasi dairələrinin təzyiqlərinə boyun əymir və müstəqil siyasət yürüdərək qətiyyətli mövqeyi ilə hər zaman onları geri addım atmağa vadar edir.

Azərbaycana qarşı riyakar siyasət yürütmək istəyən Fransanın timsalında da bunu dəfələrlə müşahidə edirik. Son olaraq Paris Bakıdakı səfirini ölkəsinə çağıraraq guya hansısa ciddi mesaj verməyə çalışmışdı. Amma Azərbaycan tərəfindən heç bir reaksiya görmədiyi üçün, Yelisey sarayı xanım səfiri necə çağırmışdısa, eləcə də Bakıya geri göndərdi...

İllərdir əllərində saxladıqları Qarabağ kartını itirən ikiüzlü Qərb təsisatları indi də ölkəmizə qarşı dırnaqarası insan haqları tezisi ilə hücuma keçməyə çalışırlar. "Abzas media", "Toplum" TV kimi layihələr ətrafında yaratdıqları şou da bunun bir parçası idi.

Amma Qərb özü də yaxşı bilir ki, Azərbaycan onun rəngli inqilablar keçirərək müharibə, münaqişə meydanına çevirdiyi, ərazilərinin itkisinə nail olduğu nə Ukrayna, nə Gürcüstan, nə də digər bu kimi ölkələrdir. ABŞ-nin başçılıq etdiyi bu təsisatların ölkəmizlə bağlı yürütdüyü bütün ssenarilər fiaskoya məhkumdur.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Fransanın müstəmləkəçilik tarixinin qanlı izləri...

XXI əsrin üçüncü onilliyidir. Ancaq hələ də Orta əsrlərin müstəmləkəçilik təfəkküründən uzaqlaşmamış ölkələr mövcuddur. Bu ölkələrin başında isə özünü demokratik hesab edən Fransa dayanır.

Müstəmləkəçilik siyasəti bu ölkənin tarixində qara ləkələr, qanlı izlər salıb. Əsrlər gəlib keçir, ancaq Fransanın bir milyon yarım əlcəzairlinin qatili olduğu unudulmur....

Azadlıqlarını tələb etmələri əlcəzairlilərin faciələri oldu. Fransa ordusu onlara qarşı kütləvi qətliamlar, çoxsaylı müharibə və insanlıq əleyhinə cinayətlər törətdi. Əlcəzairin Fransa tərəfindən işğal edilməsinə qarşı çıxan El-Uffia qəbiləsi 1832-ci ildə gecə yatdığı yerdə qılıncdan keçirildi. Qadınlar və uşaqlar da daxil olmaqla 12 min adam qətlə yetirildi.

1945-ci ildə Setif şəhərində 45 min əlcəzairli öldürüldü. 5 minə yaxını insan həbs edildi, 99 nəfər edam, 64 nəfər ömürlük katorqa cəzalarına məhkum olundu.

1961-ci il oktyabrın 17-də on minlərlə əlcəzairli Fransa işğalına etiraz olaraq Parisdə nümayişə çıxdı. Fransa polisinin açdığı atəş və etirazçıları Sena çayına atması nəticəsində 1500-ə qədər əlcəzairli öldü. 1000 nəfərdən çox insan həbs edildi. Bu faciə tarixə "Sena qətliamı" kimi daxil oldu. Fransa hakimiyyəti bu dəhşətli cinayətlə bağlı da susqunluq nümayiş etdirdi.

Fransa tərəfindən Əlcəzairin Böyük Səhrada payına düşən Reqqan və İn Ekker adlı ərazilərində 1960-1966-cı illərdə 17 nüvə sınağı həyata keçirildi. Onlardan 11-i yeraltı sınaqlar idi. İndiyədək Fransa aşkar edilməmiş kimyəvi, radioaktiv və zəhərlənmiş tullantıların yerləşdiyi ərazilərə dair topoqrafik xəritələri Əlcəzair tərəfinə təqdim etmir. Həmçinin həmin sınaqların və tullantıların yerli əhaliyə göstərdiyi təsirlərin qiymətləndirilməsi, müvafiq kompensasiyanın verilməsi məsələsindən imtina edir. Fransa işğal etdiyi Əlcəzair ərazisinə 5 milyondan artıq mina basdırıb. Həmin minaların xəritələrini də Əlcəzair tərəfinə verməkdən boyun qaçırır.

Fransanın dəhşətli işğalçılıq siyasətindən əziyyət çəkən yalnız əlcəzairlilər deyil. Afrika, Cənub-Şərqi Asiya, Sakit okean, Latın Amerikasında onlarla ölkə Fransanın müstəmləkəçiliyi səbəbindən ağır faciələrlə üzləşiblər. Bu ölkə tərəfindən dünyanın ayrı-ayrı regionlarında 50-dən artıq dövlətin ərazisi işğal olunub, sərvətləri qarət edilib, talanıb. Yerli xalqlar hüquqlarından məhrum edilib, əsarət altında yaşamalı olublar. Bir çoxu Fransanın törətdiyi dəhşətli cinayətlərin, qətliamların, soyqırımlarının qurbanı olub.

XIX əsrdə müstəmləkə müharibələrində öldürülən döyüşçülərin 18 min ədəd kəllə sümüyü Fransanın paytaxtının - Parisin İnsan Muzeyində nümayiş etdirilməsi, dünya ölkələrinin bunu hələ də susqunluqla qarşılamaları isə insanlığa zidd olan vandallıqdır. Xatırladaq ki, onlardan 500-dən çoxu əlcəzairli döyüşçülərin kəllə sümükləridir. Fransa Əlcəzairin həmin sümükləri geriyə qaytarmaq tələbinə hələ də tam əməl etməyib.

Fransızlar tərəfindən Əlcəzairin 1830-1962-ci illəri əhatə edən işğalı dövründə 1,5 milyondan artıq insan qətlə yetirilib. Bu səbəbdən həmin ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Bu, yalnız Əlcəzair xalqının deyil, insanlığın faciəsidir.



2022-ci il noyabrın 1-də Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısındakı çıxışında Prezident İlham Əliyevin vurğuladığı kimi, Fransanın Əlcəzair xalqına qarşı törətdiyi zorakılığı, kütləvi qəddarlığı dünya heç zaman unutmamalıdır: "Fransa yüz ildən çox bir müddət ərzində Əlcəzair xalqına qarşı çox dəhşətli müharibə aparmışdır. Bu müharibə 1,5 milyon əlcəzairlinin ölümü ilə nəticələnmişdir. Bu gün biz bu faciəni anaraq gələcəkdə belə faciələrin qarşısının alınması üçün əlimizdən gələni etməliyik".

Acınacaqlısı odur ki, Fransa işğalçılıqdan, soyğunçuluqdan, zülmkarlıqdan hələ də əl çəkməyib. İndi də müstəmləkəsi altında saxladığı dövlətlər, zülmlərindən cana doymuş xalqlar var. Yüz illər əvvəl olduğu kimi, bu gün də müstəmləkəçilik siyasətini sürdürməkdən, beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozmaqdan çəkinmir. Görünən odur ki, Emmanuel Makron hökuməti Fransa tarixinin qara səhifələrini birdəfəlik örtərək yeni, işıqlı tarix yazmaq niyyətində deyil.

Ötən il oktyabrın 20-də Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində Prezident İlham Əliyev bəyan etdi ki, Azərbaycan XXI əsrdə kolonializmin davam etməsindən və kolonializmin yeni təzahürləri meyillərinin artmasından olduqca narahatdır. Dövlətimizin başçısı diqqətə çatdırdı ki, Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələr var, belə ölkələrdən biri və birincisi Fransadır. Prezident İlham Əliyev müraciətində Afrika, Cənub-Şərqi Asiya, Sakit okean, Latın Amerikasında onlarla ölkəni işğal edən, sərvətlərini talayan, xalqlarını uzun illər əsarətdə saxlayan Fransanın həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törətdiyini, fransız silahlı qüvvələrinin etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırıma məruz qoyduğunu vurğuladı: "XX əsrdə 30 il ərzində Fransız Polineziyasında Fransa tərəfindən 200-ə yaxın, 6 il ərzində isə Əlcəzairdə 17 nüvə sınağı həyata keçirilmişdir. Həmin nüvə sınaqlarının ağır fəsadları Polineziya və Əlcəzair xalqı tərəfindən bu gün də yaşanmaqdadır. Bir çox təşkilatın etdiyi çağırışlara uyğun olaraq nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilməlidir və Fransa tərəfindən müvafiq təzminatlar ödənilməlidir".

Azərbaycan tarixin müxtəlif dövründə başı müsibətlər çəkmiş ölkələrdən biridir. Torpaqları dönə-dönə işğala məruz qalıb. Əhalisinə qarşı dəhşətli qırğınlar, qətliamlar, soyqırımları törədilib. Yurdları yağmalanıb. Zəngin sərvətləri talan edilib. Odur ki, Azərbaycan xalqı işğalçılıq siyasətindən əziyyət çəkmiş, başlarına müsibətlər gətirilmiş xalqların vəziyyətini, keçirdikləri hissləri yaxşı başa düşür.

Bu gün qalib olan Azərbaycan dövləti və xalqı ölkəsində, regionunda, eləcə də bütün dünyada sülhün bərqərar olmasını, xalqların təhlükəsiz şəraitdə, əmin-amanlıq içərisində azad yaşamasını arzulaması, səy göstərməsi ilə nümunə göstərir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# REGİONLAR

## GDU-da Ulu Öndərin doğum gününə həsr edilmiş beynəlxalq konfrans keçirilmişdir





**Gəncə Dövlət Universitetində (GDU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr edilmiş "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" mözsunda beynəlxalq elmi konfrans keçirilmişdir.**

Müasir kimya, biologiya, fizika və iqtisad elmlərinin aktual problemlərinə həsr edilmiş konfransda iştirakçılara mövzu ilə bağlı 7 ölkədən daxil olan 700-dən çox məqalə təqdim olunmuşdur.

Konfrans iştirakçıları öncə Ulu Öndərin Gəncənin mərkəzi meydanında ucaldılmış abidəsini ziyarət etmişlər, sonra universitetdə Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş kitab və rəsm əsərlərindən ibarət sərgiyə baxmışlar.

Konfransı GDU-nun rektoru, professor Yusif Yusibov açaraq müasir Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin ölkəmizin hərtərəfli inkişafı, qüdrətlənməsi naminə misilsiz xidmətlərindən danışaraq diqqətə çatdırmışdır ki, Ümummilli Lider Azərbaycanı zamanın mürəkkəb tarixi sınaqlarından uğurla çıxarmış və onu əbədi müstəqilliyə qovuşdurmuşdur: "Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlər möhtəşəm quruculuq, tərəqqi və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin qızıl səhifələridir. Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmizdə digər sahələr kimi, ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi sahəsində də əsaslı dönüş yaranmış, zəngin flora və fauna müxtəlifliyinin qorunub saxlanması həmişə prioritet məsələ olmuşdur. Ulu Öndərdən sonra dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli siyasət nəticəsində isə Azərbaycan regionun ən güclü və suveren dövlətinə çevrilmişdir".

Sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək xalqımızın və dövlətimizin əldə etdiyi bütün uğurların təməlində Ulu Öndər Heydər Əliyev siyasəti və işıqlı əməlləri dayandığını bildirmişdir: "Prezident İlham Əliyev isə Ümummilli Liderin siyasi xəttinə sadiq qalaraq müstəqil ölkəmizi daha uğurlu və işıqlı gələcəyə doğru aparır".

Türkiyənin Gəncədəki baş konsulu Recep Öztop konfransda müzakirə olunan mövzuların əhəmiyyətindən danışaraq, mövcud ekoloji problemlərin aradan qaldırılması istiqamətində və ətraf mühitlə bağlı problemlərin həll olunmasında konfransda dinləniləcək elmi məruzələrin faydalı olacağını vurğulamışdır.

Tədbirdə akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasovun, Pakistan Respublikasının Sarqodha Universitetinin professoru Navar Məhəmməd Tahirin, Gəncə Dövlət Universitetinin Botanika kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Vaqif Novruzovun elmi məruzələri dinlənilmişdir.

Beynəlxalq elmi konfrans işini 16 bölmə iclasında davam etdirmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Göygöl rayonunun iqtisadiyyatında artımlar faizlə yox, dəfə ilə ölçülür

**Regional inkişaf dövlət proqramlarında, habelə ayrı-ayrı rayon və şəhərlərin problemlərinin həllinə dair əlavə tədbirlərlə bağlı Prezidentin imzaladığı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası ölkədə, ilk növbədə, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmiş, xüsusən sahibkarlıq mühitinin yaxşılaşmasına və nəticədə investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, bununla əhalinin məşğulluğunun təminatına və yoxsulluq səviyyəsinin azalmasına təkan vermişdir.**

Bu baxımdan, Göygöl rayonu da istisna deyil. Keçən il rayonda ümumi məhsul istehsalı əvvəlki illərlə müqayisədə 5,6, sənaye məhsullarının həcmi 2,7, kənd təsərrüfatında ümumi məhsul istehsalı 2 dəfə artmışdır. 2022-ci il ərzində Sahibkarlığın İnkişafı Fondu vasitəsilə sahibkarlara 80 layihə üzrə 1,7 milyon manat güzəştli kredit verilmiş və həmin hesaba 27 yeni iş yeri açılmışdırsa, ötən il fond vasitəsilə sahibkarlar 107 layihə üzrə 2,9 milyon manat güzəştli kredit almışlar, yeni açılan iş yerlərinin sayı isə 38 olmuşdur. 2023-cü il ərzində iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışının dəyəri 266,9 milyon manata çatmış, bu göstəricinin hər nəfərinə düşən məbləğ isə 4124,1 manat təşkil etmişdir. Məhsul və xidmətlərin 71,1 faizi istehsal sahələrinin, 28,9 faizi isə xidmət sahələrinin payına düşmüşdür. Aqrar sektora gəldikdə, keçən il kənd təsərrüfatında istehsal edilən ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 69,4 milyon manat olmuşdur ki, onun da 47,7 milyon manatlığı heyvandarlıq, 21,7 milyon manatlığı bitkiçilik məhsullarının payına düşmüşdür. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq sahəsində məhsul istehsalı 6,3 faiz artmışdır. Ötən ilə dair daha müsbət fakt istehsal olunan sənaye məhsullarının həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisinin 74,3 faiz olmasıdır.



Məlum olduğu kimi, Göygöl həm də perspektivli turizm rayonudur. Odur ki, rayonda bu sahənin inkişafı həmişə diqqət mərkəzində saxlanılır. Yeri gəlmişkən qeyd edək ki, keçən il Göygölə 113 mindən çox, Göygöl Milli Parkına isə 203 min turist səfər etmişdir ki, bu da 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə təxminən 30 min nəfər çoxdur.

Göygöl Rayon İcra Hakimiyyəti başçısı aparatı yanında məşğulluğa kömək göstərən əlaqələndirmə komitəsi Prezidentin 9 oktyabr 2017-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nın icrasının təmin olunması üçün aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 2023-cü ildə 4, 2024-cü ilin 1-ci rübündə 2 dəfə olmaqla rayonda fəaliyyət göstərən iri müəssisələrdə görüşlər keçirmişdir. Bundan başqa, sahibkar və fermerlərin iştirakı ilə iclaslar keçirilmiş, qeyri-rəsmi məşğulluğun qarşısının alınması, rəsmiləşdirilməyən əmək münasibətləri, əlaqələndirmə komitəsinin işinin səmərəli təşkili, aidiyyəti dövlət qurumları ilə əlaqələndirmənin təmin edilməsi istiqamətində tədbirlər görülmüşdür.

Göygöl şəhərinin infrastrukturunun yaxşılaşdırılması istiqamətində də tədbirlər həyata keçirilir. Şəhərin bir çox küçələrinə səki daşları və bordürlər düzülmüş, yeni asfalt örtüyü salınmışdır. Eyni zamanda yaşayış və inzibati binaların fasadları təmir olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Naxçıvanda qabaqcıl müəllimlərlə görüş olub

**Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunan muxtar respublikanın ümumi təhsil məktəblərinin müəllimləri ilə görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov təltif olunan müəllimləri təbrik edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycana həm birinci, həm də ikinci rəhbərliyi dövründə bütün sahələrdə olduğu kimi, təhsilə də böyük qayğı göstərdiyini bildirib. Qeyd olunub ki, "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunmaları müəllimlərin əməyinə verilən ən yüksək qiymətdir.

Sonra təltif olunan müəllimlər fəaliyyətləri dövründə Ümummilli Liderlə görüşləri ilə bağlı xatirələrini danışıblar.

Görüş iştirakçıları muzeydə dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, muxtar respublikanın ümumi təhsil məktəblərindən 9 müəllim Ümummilli Lider Heydər Əliyev irsinin tədqiqi və təbliği, azərbaycançılıq ideyasının həyata keçirilməsi, ölkənin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında, həmçinin dövlət idarəçiliyində və ictimai-siyasi sahədə xidmətlərinə görə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.

## Hacıqabulda 200 ting əkilib

**"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101 illiyi münasibətilə Hacıqabul rayonunda ağacəkmə aksiyası keçirilib.**

Yeni Azərbaycan Partiyası Hacıqabul rayon təşkilatı tərəfindən keçirilən aksiyada rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının rəhbərliyi, idarə, müəssisə və təşkilat əməkdaşları, ərazi partiya təşkilatlarının sədrləri və partiya fəalları iştirak ediblər. Aksiyada Hacıqabul-Muğan avtomobil yolunun kənarı təmizlənərək əraziyə ümumilikdə 200 ağac əkilib.

## Qaxda Kürmükoba bayramı qeyd olunub

**Qaxdakı Kürmük məbədində ildə iki dəfə - may və noyabr aylarında Kürmükoba bayramı keçirilir. Bayramda dini ayinlər icra olunur, qurbanlar kəsilir, el gəzintisi təşkil edilir.**

Kürmük məbədində növbəti bayram mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, rayon sakinləri - azərbaycanlılar, ingiloylar, gürcülər və digər xalqların nümayəndələri, həmçinin ətraf rayonlardan gələn qonaqlar əsl tolerantlıq örnəyi nümayiş etdirərək, səhər saatlarından başlayaraq birlikdə məbədi ziyarət edib, dini ayinləri yerinə yetirib, qurbanlar kəsiblər.

## Cəbhəyə yollananda hamıdan halallıq istəmişdi

**Şəhidlik uca zirvədir. Elə bir zirvə ki, Vətən uğrunda canını qurban verib bu zirvəyə ucalan oğullarımız aramızda olmasalar da, ürəklərimizdə hər zaman əbədi yaşayırlar. Vətən yolunda şəhid olmaq, canını fəda etmək insandan ürək istər, cəsarət istər, Vətən sevgisi istər.**



Bütün bunları özündə duyub Vətənin azadlığı uğrunda döyüşərək şəhidlik zirvəsinə ucalan neçə-neçə igid oğullarımız arasında naftalanlı Bəhruz Quliyev də var. Ərazi bütövlüyümüz uğrunda canını fəda edən, öz qanı ilə adını tarixin yaddaşına yazan şəhidimizin əməlləri bu gün hər bir gəncə nümunə göstərilir.

Bəhruz Quliyev 1990-cı il mayın 9-da Goranboy rayonunda anadan olsa da, Naftalan şəhərində böyüyüb boya-başa çatmışdır. 2014-cü ildə həqiqi hərbi xidməti başa vurduqdan sora "maxe" kimi hərbi xidmətini davam etdirməyə başlamışdır. Bəhruz xidmət etdiyi dövrdə özünü nümunəvi hərbçi kimi göstərmişdir. O, 2016-cı ilin Aprel döyüşlərində fərqlənərək əsl vətənpərvər olduğunu sübuta yetirmişdir.

Bəhruz Quliyevin anası Möhtərəm Quliyeva deyir ki, oğlu 44 günlük Vətən müharibəsinə yollananda hər kəsdən halallıq aldı. Sanki şəhid olacağını özü də hiss etmişdi: "Oğlum orta məktəbi bitirdikdən sonra onu hərbi xidmətə yola saldıq. Əsgərlikdə olduğu müddətdə xoş xəbərlərini eşidirdik. Tərifnamələrlə həqiqi hərbi xidmətini başa vurub əsgərlikdən qayıtdı. Çox çəkmədi ki, hərbçi olmaq arzusunu bildirdi. "Bir ana kimi mən razı olmadım. Lakin inadından dönməyib öz arzusunun arxasınca getdi. Aprel döyüşlərində iştirak etdi".

Bəhruz Quliyev Suqovuşan ətrafında gedən döyüşlərdə hər zaman dostlarına dəstək olurdu. Döyüşlərin birində eşitdi ki, dostlarından yaralananlar var. O, güllə yağışı altında döyüş yoldaşlarını ərazidən çıxarmağa çalışdı. Elə bu zaman yanlarına mərmi düşdü və Bəhruz ağır yaralandı. 7 gün yaralı vəziyyətdə orada qaldı. Yalnız bir həftədən sonra Bəhruzu oradan götürmək mümkün oldu, amma cansız cəsədini.

Bəhruzun fədakarlığı Prezident İlham Əliyevin sərəncamı ilə yüksək qiymətləndirildi. Ölümündən sonra o, "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edildi. Onu da qeyd edək ki, Bəhruzun atası Firuz Quliyev də müharibə veteranıdır. O, Birinci Qarabağ müharibəsində Ağdərə uğrunda gedən döyüşlərin iştirakçısı olub.

İndi digər şəhidlər kimi, Bəhruz Quliyevin də məzarı ziyarətgaha çevrilib. Onun təhsil aldığı məktəbin şagirdləri tez-tez şəhidin məzarını ziyarət edirlər. Şəhər rəhbərliyi isə Naftalandakı keçmiş 4-cü küçəyə şəhid Bəhruz Quliyevin adını vermiş, bulaq kompleksi inşa etdirmişdir. Bundan başqa, şəhidin ailə üzvləri tez-tez icra hakimiyyətinə dəvət edilərək arzu və istəkləri dinlənilir.



Hər il faşist Almaniyası üzərində qələbənin ildönümü qeyd edilərkən Bəhruz Quliyevin də doğum günü anılır. Həmin gün ailə üzvləri və şəhər rəhbərliyi onun məzarını ziyarət edərək xatirəsinə ehtiram göstərirlər. Sonra şəhər rəhbərliyi şəhidin valideynlərini, yadigar qalmış iki qız övladı Elay və Mədinəni ziyarət edir, qayğıları ilə maraqlanırlar.

***S.YUNİSOĞLU,***
***"Azərbaycan"***

## Qonaqlar bu dəfə "Yeni Tərtər"in başına toplaşmışlar




**Tərtərdə rayonun ictimai, siyasi və iqtisadi həyatında mühüm rol oynayan, geniş oxucu kütləsi olan "Yeni Tərtər" qəzetinin 90 illik yubileyi təntənəli şəkildə qeyd edilib.**

Yubiley tədbirində qəzetin kollektivi ilə yanaşı, rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, universitetin Redaksiya - nəşriyyat işi kafedrasının dosenti, Rasim Süleymanov, Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova, Ahıl Jurnalistlər Birliyinin sədr müavini Əminə Yusifqızı, Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik Anar Əliyevin atası Vaqif Əliyev, yolu "Yeni Tərtər" qəzetindən keçən tanınmış jurnalistlər, Bərdə, Zaqatala, Goranboy, Ağdam, Ağcabədi rayonlarında nəşr olunan qəzetlərin redaktorları, şəhid bacısı, həkim Məhəbbət Paşayeva, qəzetin keçmiş işçiləri, rayon ziyalıları iştirak etmişlər.

Tədbir iştirakçıları öncə Ulu Öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzmüşlər. Sonra onlar redaksiyanın tarixini əks etdirən fotostendlərə, redaksiya əməkdaşlarının kitablarından ibarət sərgilərə baxmış, qəzetin müxtəlif illərdə nəşr edilmiş nömrələri ilə tanış olmuşlar.

Yubiley tədbiri rayon icra hakimiyyətinin akt zalında davam etmişdir. Qəzetin redaktoru Svetlana Bağırova "Yeni Tərtər"in keçdiyi tarixdən danışmışdır. Bildirmişdir ki, 1934-cü ildə Tərtərdə nəşr olunmağa başlayan qəzet "Kolxozçuların varlanması yolunda" adlanıb. Həmin vaxt Tərtər rayon MTS-in siyasi şöbəsinin orqanı olan qəzet həftədə bir dəfə kiçik tirajla çıxıb. Sonrakı illərdə adı bir neçə dəfə dəyişdirilmiş qəzet 2005-ci ildən "Yeni Tərtər" adı ilə nəşr olunur.

Çıxış edən qonaqlar qəzetin kollektivinə, oxucularına öz təbriklərini çatdırmışlar. Çıxışlarda bölgə qəzetlərinin rastlaşdığı çətinliklərdən də söhbət açılmış, bu çətinliklər ucbatından bəzi rayon qəzetlərinin fəaliyyətlərini dayandırdığı, bəzilərinin çox az tirajla ayda bir dəfə nəşr edildiyi qeyd olunmuşdur. O da bildirilmişdir ki, bütün çətinliklərə sinə gərərək öz fəaliyyətini davam etdirən "Yeni Tərtər"ə rayon rəhbərliyi tərəfindən həmişə diqqət və qayğı göstərilir. Bu maddi və mənəvi dəstək qəzeti susmağa qoymur.

Tədbiri Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov yekunlaşdıraraq qəzetin kollektivini yubiley münasibətilə təbrik etmiş, kollektivə yeni yaradıcılıq uğurları arzulamışdır. Sonra o, qəzetin əməkdaşlarına rayon icra hakimiyyətinin fəxri fərmanlarını, redaktoruna isə Prezidentin sərəncamı ilə təltif olunduğu "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalını təqdim etmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***





# Vətən deyəndə...





● Qılınc və qələm

# Qəhrəmanları tarixdə yaşadan izlər

**Qələm, silah və qəhrəmanlıq. Bunlar bir-birini tamamlayan dost-doğma ifadələrdir. Tarixdən bilirik ki, qələmin yazdığı söz bir çox məqamlarda silahdan da üstün və kəsərli olub. Həm də baxır sözün yazılan anına, sözü yazan müəllifin təfəkkürünün zənginliyinə, idrakının ənginliyinə.**



Tarixdən yazdıqlarımıza çoxlu misallar gətirə bilərik. Görkəmli yazıçımız Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanında sərkərdə Fəxrəddin qılıncı, dahi şairimiz Nizami Gəncəvi isə qələmi, sözü təmsil edir. Nəsrəddin Tusi cəmiyyəti təhlil edəndə insanları "qələm əhli" və "qılınc əhli" kimi səciyyələndirir. Xalq qəhrəmanı Koroğlunun həm misri qılıncı, həm də telli sazı, yəni sözü var idi. Tariximizdə həm qılınc, həm də qələmlə fatehlik zirvəsinə çatan şəxsiyyətlərimiz çox olub. Bu, Azərbaycan xalqının hansı potensiala malik olduğunun göstəricisidir.

Dövlətçiliyimizin tarixində həm qılınc, həm də qələm dahisi Şah İsmayıl Xətai şəxsiyyəti olub. Müharibədə, döyüş meydanında sözün qüdrətindən danışanda böyük sərkərdə və gözəl şair Şah İsmayıl Xətainin dərin məzmunlu bu misraları yada düşür: "Söz vardır kəsər savaşı, söz də vardır kəsdirər başı..."

Tarixin bəzi dövrlərini nəzərdən keçirəndə qələmlə yazılanın qılıncla qorunmasını da çox görmüşük. Bu ondan irəli gəlir ki, qələmin yazdıqlarının səsi eşidilməyəndə qılıncların işə düşmək zərurəti yaranır.

Hər bir xalq tarixində qılınc və qələm çalanlara minnətdardır. Çünki hər ikisi haqq işinə xidmət edir. Hər ikisindən bacarıqla istifadə edənlər qəhrəmandırlar. Qələm yazmaq, silahsa döyüşüb qoynunda dünyaya göz açdığın yurdunu, torpağını, təmsil etdiyi xalqını düşməndən qorumaq, bu yolda qəhrəmanlıq göstərmək üçündür. Qələm əsgərin, zabitin, sərkərdənin hərb meydanlarında göstərdiyi cəsarəti və hünəri vəsf edib tarixləşdirmək qüdrətinə malikdir. Mütəfəkkirlər qəhrəmanlığa müxtəlif yönlərdən yanaşmış, çeşidli forma və məzmunda vəsf etmişlər. Onlar bütün dövrlərlə səsləşən, zamanla ayaqlaşan dəyərli əsərləri ilə oxucularının qəlbinə qəhrəmanlıq toxumu səpməyə çalışmışlar. Sonrakı illərdə baş verən hadisələr göstərdi ki, məqsədlərinə nail olmuşlar, istəklərinə çatmışlar. Çünki illər sonra yazıçı və şairlər dəyərli əsərləri ilə səpdikləri toxumlardan yeni qəhrəmanlar boy vermiş, yeni igidlər doğulmuşdur. Böyük zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsi buna canlı misaldır.

Məlum həqiqətdir ki, misilsiz qələbələr qazanaraq tarixdə qəhrəman kimi ad qoymaq yalnız iradəli, dəyanətli və qürurlu insanlara nəsib olur. Qələbələr isə asanlıqla qazanılmır, bunun üçün həyatını riskə qoyaraq qorxu bilmədən çarpışmalı və vuruşmalısan. Qələbəyə gedən yollar cəng meydanlarından, hünər və rəşadət pillələrindən keçir. Cəsarətli addımlar atıb hünər göstərmək zəiflərin işi deyil. Mübarizə və döyüş meydanları yalnız cəsurların yeridir. İradəsi möhkəm olmayanlardan heç qələbə gözləməyə də dəyməz. Çünki zəiflər geriyə, güclü və qürurlular isə daim irəliyə can atırlar. Güclülər yaxşı bilirlər ki, irəlidə onları igidlik və qəhrəmanlıq gözləyir.

Qəhrəmanlıq bulağından su içən zabit və əsgərlərimiz 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlayan İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında böyük cəsarətlə vuruşaraq torpaqlarımızı erməni işğalçılarından azad etdilər. İgidlikləri ilə qəhrəmanlıq tariximizdə dərin izlər qoydular. Hərbçilərimizin Vətən müharibəsində silahla göstərdiyi qəhrəmanlıq bu gün qələmlə yazılmalıdır və yazılır da. Yazılır ki, gələcək nəsillər qəhrəmanlığı, igidliyi onlardan öyrənsinlər. Bu cəsur oğulların qəhrəmanlıq yollarını şərəflə davam etdirsinlər. İgidlikdə, cəsarətdə onlara oxşasınlar.

Göründüyü kimi, qələmlə silah əbədi yollarına, yol yoldaşlığına davam edir. Bir-birindən ayrılmırlar, bir-birindən uzaq düşmürlər. Heç vaxt da düşməyəcəklər, tarixin səhifəsində qoşa addımlayacaqlar, qoşa iz salacaqlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

# Son nəfəsində də Vətən dedi

**Mayor Emin Süleymanov 2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlanan Vətən müharibəsində artilleriyaçı kimi iştirak etmişdir. Murovdağın, Füzulinin, Xocavəndin, Şuşanın və Laçının azad olunması uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərmişdir. Təəssüflər olsun ki, cəsur zabit 9 noyabr 2020-ci ildə müharibənin 43-cü günündə 43 yaşında Laçın dəhlizi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.**





İkinci Qarabağ müharibəsində iştirak edən zabit və əsgərlərimiz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdikləri misilsiz qəhrəmanlıqlar xalqımıza böyük qələbə sevinci yaşatdı. Mayor Emin Süleymanov İkinci Qarabağ müharibəsinin ilk günündən döyüşlərə atılıb. Artilleriyaçı kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib. Vətən qarşısındakı övladlıq borcunu şərəflə yerinə yetirib. Son nəfəsində də "Vətən" deyib...

İkinci Qarabağ müharibəsində vəzifə borcunu şərəf və ləyaqətlə yerinə yetirdiyinə və döyüşlərdə göstərdiyi igidliyə görə mayor Emin Bəhmən oğlu Süleymanov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Şuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

Emin Süleymanov 21 iyul 1977-ci ildə İmişli rayonunun Xubyarlı kəndində dünyaya göz açmışdı. 1983-1992-ci illərdə kənddəki orta məktəbdə oxumuşdu. 1992-cü ildə hərbçi olmaq arzusu ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olmuşdu. 1995-1999-cu illərdə isə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə artilleriya ixtisasına yiyələnmişdi. Ali hərbi təhsilini başa vuran Emin Süleymanov leytenant rütbəsi ilə hərbi hissələrdən birinə taqım komandiri təyin olunmuşdu. Xidmətə böyük həvəslə başlayan gənc zabit hərbi məktəblərdə əxz etdiyi bilikləri böyük həvəslə ordu sıralarına yeni çağırılan əsgərlərə öyrədirdi.

Sonrakı illərdə Emin Süleymanov ayrı-ayrı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət etdi. Həmişə də üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldi. Cəsur zabit Aprel döyüşlərində böyük hünər və cəsarət göstərdi. Düşmən hədəflərinə dəqiq artilleriya zərbələri endirdi. Vətən müharibəsində isə mayor Emin Süleymanovun döyüş yolu Murovdağdan başladı. Bir müddət bu istiqamətdə vuruşduqdan sonra onların bölmələri Füzuli rayonuna göndərildi. Emin bu istiqamətdə vuruşa-vuruşa Cəbrayıldan, Zəngilandan, Qubadlıdan və Laçından keçərək Şuşayacan getdi. Şuşanın erməni işğalçılarından azad olunmasında yaxından iştirak etdi. Son döyüşü də elə bu istiqamətdə oldu. Həyat yoldaşı Məhsəti Süleymanova Eminli günlərindən və onun son zəngindən söz açdı:

- İki övladımız var. Emin çox vətənpərvər bir zabit idi. Söhbətinin əvvəli də, sonu da Vətən idi. Ən böyük arzusu işğalda qalmış torpaqlarımızın düşməndən azad olunmasıydı. İkinci Qarabağ müharibəsində döyüşlərə yola düşəndən sonra tez-tez zəng vurub uşaqlardan hal-əhval tutur, uğurlu döyüşlərindən danışırdı. Son zəngi noyabrın 7-də oldu. Dedi ki, artıq Şuşaya yaxınlaşırıq. Bu gün-sabah Şuşanı da işğaldan azad edəcəyik. Bu, ondan gələn son zəng oldu. Noyabrın 9-da Eminin şəhid olduğunu eşitdik. Onu İmişli rayonunun Xubyarlı kəndində torpağa tapşırdıq. Həyat yoldaşımın qəhrəmanlığı, igidliyi ilə həmişə fəxr edəcəyəm. Övladlarımı onun adına layiq böyütməyə çalışacağam.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Şəhidlərimizin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib

**Torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Mehbalı Zeynalabdıyev və Azər Salmanovun xatirəsinə həsr olunan anım mərasimləri keçirilib. Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.**



Bildirilib ki, Müdafiə Nazirliyinin nümayəndələrinin, şəhidlərin ailə üzvlərinin, yaxınlarının, döyüş yoldaşlarının və digər qonaqların iştirak etdikləri mərasimlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbir çərçivəsində şəhidlərimizin məzarları ziyarət olunub, xatirələrinə dualar oxunub.

Çıxış edənlər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun düşmən üzərində qazandığı parlaq qələbədən, Vətən müharibəsində igid oğullarımızın göstərdiyi şücaət və qəhrəmanlıq nümunələrindən danışıblar.

Sonra şəhidlərimizin ömür və döyüş yoluna həsr olunan videoçarx nümayiş olunub.

Şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Prezident İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Anım mərasimində şəhidlərimizə həsr olunan şeirlər, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti tərəfindən vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib.

● Ölməzliyə qovuşanlar

# Vətən yolu sevgi yoludur

**İllərdir ki, dağ da, daş da, düşmən ayağı altında olan sinəsi yaralı torpaqlarımız da "qisas" deyib qeyrətli oğullarımızı döyüşə səsləyirdi. "Qisas qiyamətə qalmaz", - deyib müdriklər. Nəhayət, 2020-ci il sentyabrın 27-də azğın düşmənə layiqli cavab vermək məqsədilə Ali Baş Komandan "dəmir yumruğ"unu düyünləyib "yetər", - dedi. O andan xalq bir olub yumruğa döndü. Oğullarımız Hərbi Səfərbərlik İdarələrinin qarşısına axışıb döyüşmək, düşmənə layiq olduğu yeri göstərmək niyyəti ilə silaha sarıldılar.**

Analar döyüşə uğurladıqları övladlarının arxasınca göz yaşı tökmədilər, su səpdilər. Oğullar "Təki Vətən sağ olsun", - deyib cəsarətlə düşmənin üstünə yeridilər. Düşmənin üstünə gedənlərin sırasında Əli də var idi…

Əli Mehman oğlu Nağıyev 1991-ci il dekabrın 25-də Bakıda anadan olub. 91 saylı məktəbin 9-cu sinfini bitirdikdən sonra təhsilini 6 saylı Texniki Peşə Liseyində davam etdirərək sürücülük peşəsinə yiyələnib. 2010-cu ildə həqiqi hərbi xidmətə çağırılan Əli Nağıyev əsgərliyinin ilk aylarını Ağcəbədi rayonunda yerləşən "N" saylı hərbi hissənin minaatan bölüyündə keçirsə də, sonralar xidmətini Ağdam rayonunda davam etdirib. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra bir müddət Bakı şəhərində sürücülük edən Əli Nağıyev daha sonralar "Safir" hotelində işə düzəlib. İşlədiyi müddətdə işgüzarlığı, səmimiyyəti ilə seçilən Əli Nağıyev kollektivin dərin hörmətini qazanıb. 2020-ci ilin yayında düşmənin Tovuz rayonu istiqamətində torpaqlarımızı işğal etməyə cəhd göstərməsi Əli Nağıyevin də qəzəbinə səbəb olub. O, yaşadığı rayonun Hərbi Səfərbərlik İdarəsinə gedərək düşmənlə döyüşə getmək niyyətində olduğunu bildirib. Əli Nağıyev 2020-ci il sentyabrın 20-dən Pirəkəşküldə hərbi təlimlərə cəlb olunub. O, 27 sentyabrda səhər tezdən Ermənistan silahlı qüvvələrinin torpaqlarımıza xaincəsinə basqını zamanı Füzuli rayonunda düşmənlə qanlı savaşa girənlərin sırasında səf tutan qəhrəman oğullarımızdan biri olub.



Əli 44 günlük Vətən müharibəsində Füzuli, Cəbrayıl, Qubadlı, Xocavənd rayonlarının düşməndən azad olunması uğrunda gedən döyüşlərdə fədakarlıq göstərib. 20 oktyabr 2020-ci ildə Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Əli Nağıyev 22 oktyabrda Səbail rayonu Badamdar qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn edilib. Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq dövlətimiz tərəfindən yüksək qiymətləndirilərək Əli Nağıyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

Anası Lalə xanım Əli haqqında xatirələrini göz yaşı içində bizimlə bölüşür:

- Əli gözümün ilki idi. Mehriban, olduqca səmimi, sakit, dindirməsən danışmayan bir insan idi. Uşaq doğulanda, dünyaya gələndə ağlayar. Dünyaya gələndə də sakit, səssiz, küysüz gəlmişdi. Gəldiyi kimi sakit də getdi.

Əli mənim sağ əlim idi. Hər sözümü, hər dərdimi Əliyə deyə bilirdim. Hər işi onunla məsləhətləşirdim. Allah Əliyə Vətən sevgisini hər şeydən çox vermişdi. Əli məni hərəkətləri, davranışı ilə sanki bu günə hazırlayırdı. Şəhidlər haqqında maraqlı söhbətlər edirdi. "Şəhidin üzünə cənnətin 8 qapısı açıq olur", - deyirdi. Əli 2020-ci ilin yayında gedib könüllü yazılmışdı ki, Qarabağda döyüşsün. Səfərbərlikdən çağırış gələndə çox sevinirdi. 27 sentyabrda Füzuli rayonundan zəng vurmuşdu. Dedi ki, "Düşmənlə üz-üzəyəm. Döyüşürəm. Şəhid olsam, haqqını halal elə".

Əlini yola salanda məni qucaqlayıb demişdi ki, "Arxamca ağlama, mənimlə fəxr elə. Oğul Vətən üçün, vətəni qorumaq üçün dünyaya gəlir". Dedim ki, Əli, övlad da şirindir, Vətən də müqəddəsdir. Allah heç bir ananı seçim qarşısında qoymasın. Get, Vətəni qoru! Düşmən qarşısından qaçsan, südümü halal etmərəm. Əli dedi ki, "səndən bunu gözləyirdim".

İnsan ömrü yola bənzəyir. Vətən yolu isə sevgi yoludur. Sevərək yaşayanlar, sevilərək ölənlər ölməzlərdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Hərbi Hava Qüvvələrinin şəxsi heyəti üçün vətənpərvərlik ruhunda tədbir

**Qala qəsəbəsində yerləşən 216 nömrəli tam orta məktəbdə Hərbi Hava Qüvvələrinin şəxsi heyəti və onların ailə üzvləri üçün vətənpərvərlik ruhunda tədbir təşkil olunub.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra Vətən müharibəsində Hərbi Hava Qüvvələrinin müstəsna rolundan bəhs edən sənədli film nümayiş olunub.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivinin və məktəblilərin vətənpərvərlik mövzusunda təqdim etdikləri musiqi nömrələri böyük maraq və alqışlarla qarşılanıb.

Tədbirdə "Əsgərə məktub" layihəsi və müxtəlif yarışlar, oyunlar və viktorinalar keçirilib. Yarışlarda qalib olan şagirdlərə mükafatlar təqdim olunub.

# Hərbi İdarəetmə İnstitutunda təkmilləşdirmə kursunun buraxılış mərasimi olub

**Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda Əməliyyat - Taktiki fakültənin "Tabor (divizion) komandiri" səviyyəsində təkmilləşdirmə kursunun 66-cı buraxılış mərasimi keçirilib.**



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ümummilli Lider Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla anılıb.

Buraxılış mərasimində çıxış edən Hərbi İdarəetmə İnstitutunun rektoru polkovnik Elnur Əsgərli kursu bitirən iştirakçıları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıb. Dinləyicilər kurs müddətində yaradılan şəraitə görə Müdafiə Nazirliyinin rəhbərliyinə, eləcə də professor-müəllim heyətinə dərin minnətdarlıqlarını bildiriblər.

Sonra kursu bitirən məzunlara sertifikatlar təqdim olunub.

# "AzerGold" QSC ölkə ərazisində geoloji tədqiqat işlərini şaxələndirib

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) ölkəmizdə əlvan və qara metal filizi yataqlarının kəşfiyyatı, resurslarının qiymətləndirilməsi, istismara cəlb edilməsi, fəaliyyətdə olan mədənlərin resurs potensialının artırılması məqsədilə aktiv və çoxprofilli geoloji tədqiqatlarını davam etdirir.**




Tədqiqatlar 3 istiqamətdə - QSC-nin idarəetməsinə verilən filiz sahələri; ölkə ərazisində ümumi geoloji axtarış proqramı; Qarabağ və Şərqi Zəngəzurda mineral xammal ehtiyatlarının monitorinqi, təftişi, axtarışı, qiymətləndirilməsi üzrə həyata keçirilir.

QSC-dən verilən məlumata görə, hazırda birinci istiqamət üzrə "AzerGold" QSC Balakən rayonunda yerləşən və mürəkkəb geoloji quruluşa malik "Filizçay" polimetal yatağında optimal emal və zənginləşdirmə metodologiyasının müəyyənləşdirilməsi üçün metallurji, eyni zamanda Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində yerləşən "Ortakənd" qızıl yatağında aşkarlanmış qızıl ehtiyatlarının geoloji-iqtisadi qiymətləndirilməsi və açıq üsulla filizçıxarma parametrlərinin optimallaşdırılması üzrə tədqiqatlar aparır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikasının dağətəyi sahələrində, eləcə də Daşkəsən, Göygöl və Kəlbəcər rayonlarında aktiv geoloji tədqiqatlar aparılır. Perspektivli sahələrin daha qısa vaxtda müəyyənləşdirilməsi, yüksək vəsait tələb edən buruqqazma işlərinə qənaət edilməsi, daha kiçik arealı əhatə edən, dəqiq koordinatlar üzrə aparılması məqsədilə Qafqaz regionunda ilk dəfə olaraq qeyri-invaziv axtarış metodları - hiperspektral peyk çəkilişləri və aeroelektromaqnetik tədqiqat üsullarından istifadə edilir. Yüksək effektlə tətbiq edilən bu tip axtarış-qiymətləndirmə işləri çərçivəsində 2022-ci ildə "AzerGold" QSC tərəfindən Şərqi Zəngəzurun Kəlbəcər və Laçın rayonlarını əhatə edən 1624 km2 sahəsində hiperspektral peyk çəkilişləri həyata keçirilib.

Digər geoloji fəaliyyət istiqaməti üzrə, Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2023-cü il tarixli Sərəncamına uyğun olaraq "AzerGold" QSC və Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə ölkə ərazisində ümumi geoloji axtarış işlərinin icrasını davam etdirir. Ötən illərdə Ekologiya və Təbii Sərvətlərin Nazirliyi ilə birgə ölkə üzrə mövcud əlvan və qara metal filizi yataqları ilə bağlı məlumat arxivi yenilənib, SSRİ dövründə aparılmış geoloji kəşfiyyat işləri barədə toplanan statisik məlumatlar elektronlaşdırılıb, geoloji xəritə və qrafik əlavələr isə rəqəmsallaşdırılıb. Beləliklə, hər bir yataq üzrə məlumat bazası yaradılıb. Bununla belə, SSRİ dövrünə aid məlumatların müasir dövrün texnoloji potensialını, yüksək metal qiymətlərini tam əks etdirməməsi ölkə ərazisində yenidən geoloji tədqiqatların aparılmasını zəruri edib. Bu məqsədlə Səhmdar Cəmiyyət 2024-cü ilin birinci rübündə Naxçıvan Muxtar Respublikasının Ordubad, Culfa və Şahbuz rayonlarını əhatə edən 2566 km2 sahədə hiperspektral peyk çəkilişlərinin icrasına başlayıb. Həmçinin Daşkəsən, Göygöl və Goranboy rayonlarının ərazilərini əhatə edən 1890 km2 sahədə helikopter vasitəsilə aeroelektromaqnetik tədqiqatların aparılması üçün hazırlıq işlərinə start verilib. Bundan başqa, növbəti illərdə Şuşa, Xocalı və Ağdərə rayonlarında sözügedən metodlar vasitəsilə axtarış-qiymətləndirmə işlərinə başlanılması nəzərdə tutulub. Ümumilikdə tədqiqatlar 3 mərhələ, o cümlədən axtarış-qiymətləndirmə, ilkin kəşfiyyat işləri və dəqiq kəşfiyyat işlərini əhatə edəcək.

Sözügedən sərəncama uyğun olaraq potensial minerallaşma sahələrində aparılacaq tədqiqatlar nəticəsində yataqların geoloji modelləri tərtib ediləcək, mövcud ehtiyatlar beynəlxalq JORC (Joint Ore Reserves Committee - Birgə Filiz Ehtiyatları Komitəsi) standartlarına uyğun yenidən hesablanacaq, bununla perspektivli minerallaşma sahələri müəyyənləşdiriləcək. Yataqlar üzrə əhatəli tədqiqatların yekunu olaraq toplanmış geoloji məlumatlar hasilat prosesinin təşkili məqsədilə dövlət tərəfindən seçiləcək əməliyyatçı şirkət-investora təqdim ediləcək.

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq QSC-nin öhdəliyinə mineral xammal ehtiyatlarının monitorinqi, təftişi, axtarışı, qiymətləndirilməsi kimi bir sıra vacib tapşırıqlar qoyulub. "AzerGold" QSC 2022-2026-cı illəri əhatə edən Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurun mövcud təbii sərvətlərindən Azərbaycan xalqının mənafeyi naminə istifadə edilməsi istiqamətində dövlətin yürütdüyü siyasətə dəstəyini göstərməyə davam edir.

Sənaye əhəmiyyətli resurslara malik yeni yataqlar dövlət tərəfindən milli operator şirkəti olan "AzerGold" QSC-nin idarəetməsinə həvalə olunduqda, istismar fəaliyyətinin bir hasilat sahəsindən yeni sahələr üzrə şaxələndirilməsinə, nəticə etibarı ilə şirkətin iqtisadi inkişaf tempinin bərpasına və qorunmasına səbəb olacaqdır.

# Bakıda Türk Dünyası Ortaq Əlifba Komissiyasının ikinci iclası keçirilib

Mayın 6-da Türk Dünyası Ortaq Əlifba Komissiyasının ikinci iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, Türk Akademiyası və Atatürk adına Mədəniyyət, Dil və Tarix üzrə Ali Şurasının Türk Dil Qurumu, həmçinin Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən iclasda ortaq əlifbanın inkişafı istiqamətində atılacaq yeni addımlar müzakirə olunub.

Tədbiri açan Azərbaycan Atatürk Mərkəzinin direktoru, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov rəhbərlik etdiyi qurumun Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradıldığını və 25 ilə yaxındır ki, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsinə və təbliğinə xidmət etdiyini bildirib. Ortaq türk əlifbasının yaradılması ilə bağlı tədbirin Atatürkün adını daşıyan Mərkəzdə keçirilməsinin təsadüfi olmadığını qeyd edən akademik, Türkiyə Cümhuriyyətinin banisi və ilk prezidenti Mustafa Kamal Atatürkün 1928-ci ildə ən böyük layihələrdən birini həyata keçirərək, Türkiyədə latın əlifbasına keçidi təmin etdiyini söyləyib.

Azərbaycanda latın qrafikasına keçidin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdıran Nizami Cəfərov 2001-ci ildə Ümummilli Lider tərəfindən imzalanmış "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərmanla ölkədə iki əlifbadan istifadəyə birdəfəlik son qoyulduğunu və latın qrafikasına keçidin təmin olunduğunu bildirib. Akademik çıxışının sonunda ortaq türk əlifbasının yaradılması istiqamətində aparılan işlərin zamanın tələbi olduğunu vurğulayıb.

Sonra çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli Türk dünyasında gedən sürətli inteqrasiya proseslərinin bir çox məsələləri, o cümlədən ortaq əlifbanın yaradılması məsələsini subyektiv şəkildə meydana qoyduğunu bildirib. O, bu baxımdan ortaq türk əlifbasının yaradılması istiqamətində aparılan müzakirələrin dövrün çağırışı olduğunu və mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

AMEA-nın rəhbəri Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 14-də keçirilmiş andiçmə mərasimindəki çıxışında Türk dünyası ilə əməkdaşlığın dövlət siyasətində prioritet olduğunu və Türk Dövlətləri Təşkilatını vahid bir ailə kimi təsvir etdiyini xatırladıb.

Akademik İsa Həbibbəyli türk xalqlarının latın qrafikası əsasında ortaq əlifbaya keçidi məsələsinin təqribən 100 il əvvəl Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayda müzakirə edildiyini xatırladıb. Bildirib ki, 1926-cı ildə keçirilmiş Birinci Türkoloji Qurultayda ərəb əlifbasının sadələşdirilib qəbul edilməsi və vahid qrafit təsvirləri olan latın əlifbasına keçid məsələsi tədbirin əsas müzakirə mövzusu idi. Onun sözlərinə görə, SSRİ ərazisində yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı mühüm əhəmiyyət daşıyan bu qurultay türk xalqlarının elmi-mədəni birliyinə üfüqlər açan ictimai hadisə idi.

Türk dünyasında əlifba islahatlarının Azərbaycan xalqının mütəfəkkiri Mirzə Fətəli Axundzadə tərəfindən başladıldığını söyləyən AMEA-nın prezidenti 1879-cu ildə latın qrafikası əsasında əlifba hazırlandığını diqqətə çatdırıb. O, 1924-cü ildə yaradılan Əlifba Komissiyasının bu istiqamətdə müəyyən işlər gördüyünü qeyd edib.

Akademik İsa Həbibbəyli indiki mürəkkəb geosiyasi şəraitdə ortaq əlifbanın yaradılmasının Türk dövlətləri arasında inteqrasiyanın, birlik, həmrəylik və əməkdaşlığın daha da genişlənməsi baxımından vacibliyini vurğulayıb, Türk Dünyası Ortaq Əlifba Komissiyasının işinə bu istiqamətdə uğurlar arzulayıb.

Çıxışının sonunda AMEA-nın prezidenti, Xalid Səid Xocayevin 1935-1937-ci illərdə Azərbaycan dilinə tərcümə etdiyi Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərinin Dilçilik İnstitutu tərəfindən çap olunmuş iki cildini Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayevə hədiyyə edib.

Akademik Şahin Mustafayev bildirib ki, Türk dünyası üçün son dərəcə zəruri olan ortaq əlifbanın yaradılması məsələsi bütün ziyalıların qarşısında mühüm vəzifə kimi durmaqdadır. Ortaq kökə və mədəniyyətə sahib olan türk xalqlarının bir-biri ilə sürətli inteqrasiya proseslərinin getdiyi müasir mərhələdə onların ortaq əlifbasının olmasının müstəsna rolu var. O, həmçinin bildirib ki, türk xalqlarının dil yaxınlığının qorunub saxlanması əməkdaşlığın gücləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Ş.Mustafayev Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır" fikrinin Türk dünyasında sevinclə qarşılandığını vurğulayıb.

Ötən il Astana şəhərində baş tutan Türk Dövlətləri Təşkilatının (TDT) 10-cu yubiley Zirvə görüşü zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Türk dövlətlərinin eyni əlifbaya keçə bilməsi barədə təklif irəli sürdüyünü xatırladan akademik ortaq türk əlifbası təklifinin TDT-nin katibliyinə təqdim edildiyini bildirib.

Türk Dünyası Ortaq Əlifba Komissiyasının ilk iclasının ötən il mayın 29-da Astanada keçirildiyini söyləyən Türk Akademiyasının prezidenti ortaq əlifba ilə bağlı fikir mübadiləsinin aparılması, təkliflər əsasında ortaq əlifba üzrə fəaliyyət planının müəyyən edilməsi, eləcə də terminologiya sahəsində həyata keçirilən layihələrin qiymətləndirilməsi baxımından Bakıda keçirilən iclasın önəmini qeyd edib.

Daha sonra Türk Dil Qurumunun rəhbəri professor Osman Mert çıxış edərək Türk dünyasının ortaq əlifbasının yaradılmasını tarixi hadisə kimi dəyərləndirib. Qədim dövrlərdən əcdadlarımızın yüksək yazı mədəniyyətinə malik olduğunu deyən professor O.Mert türk dilində danışan ölkələrlə elmi-mədəni əlaqələrin genişləndirilməsi baxımından ortaq əlifbanın yaradılmasının vacibliyini vurğulayıb. Türkiyəli professor bildirib ki, ortaq əlifba mədəniyyətimizin, dilimizin bir-birinə daha da yaxınlaşmasını təmin edəcək. Bu, həm də turizm baxımından çox əhəmiyyətlidir.

İclasda çıxış edən TDT Ağsaqqallar Şurasının üzvü Həsən Həsənov türk dövlətlərinin mövcud əlaqələrini, münasibətlərini intibah kimi qiymətləndirib. Qeyd edib ki, vaxtilə Azərbaycanda latın qrafikasına keçilməsinə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində nail olunub: "Hazırda türk dövlətlərinin ortaq əlifbasının yaradılması üzərində iş gedir və Prezident İlham Əliyev bu istiqamətdə görülən işlərə böyük dəstək verir".

Daha sonra tədbir plenar iclaslarla davam edib.

"Əlifba sahəsində aparılan işlərin və irəliləyişlərin qiymətləndirilməsi", "Türk dünyasının ortaq əlifbası ilə bağlı fəaliyyət planının müəyyən edilməsi" və "Ortaq terminologiya sahəsində araşdırmaların qiymətləndirilməsi və atılacaq addımlar" adlı sessiya iclaslarında geniş müzakirələr aparılıb, təkliflər səsləndirilib.

Xatırladaq ki, 2021-ci ildə TDT Dövlət Başçılarının 8-ci Zirvə görüşündə qəbul edilən "Türk Dünyası 2040 Baxışı" sənədində TDT-yə üzv ölkələr arasında əlaqələrin gücləndirilməsi üçün ortaq əlifba və terminologiyada birliyə nail olunması qarşıya hədəf qoyulub. Çünki Türk dövlətlərinin əlifbalarının uyğunlaşdırılması qardaş ölkələr arasında əməkdaşlığı artıracaq mühüm amillərdən biridir.

# Hayastanda kilsə də sülhə qarşı çıxır

## Revanşistlərin çevriliş etmək cəhdi erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir

Hayastanda Nikol Paşinyan hakimiyyətinin siyasətinə qarşı çıxan sabiq iqtidar təmsilçiləri yeni qarşıdurma yaratmaqla ölkəni növbəti xaosa sürükləmək istəyirlər.



Son günlərdə Azərbaycanla sülh müqaviləsinin imzalanması ilə bağlı gedən müzakirələr fonunda sosial narazılıqlardan istifadə edən Sarkisyan-Koçaryan koalisiyasının revanş istəyi vəziyyətin daha da qarışacağını göstərir.

Hadisələrin inkişafı göstərir ki, keçmiş hərbi xunta yaranmış vəziyyətdən istifadə edərək, kilsəni də siyasi proseslərə cəlb edərək ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır. Bütün bunların fonunda Hayastanda kilsə və hakimiyyətin qarşıdurması açıq müstəviyə keçir. Bu qarşıdurmada əsas motiv Azərbaycanla Hayastan arasında başladılan delimitasiya və demarkasiya prosesinə qarşı çıxmaqdır. Belə ki, katolikos II Qaregin Hayastanın daxili parçalanma təhlükəsi ilə üzləşdiyini bildirib.

Göründüyü kimi, revanşistlər kilsənin imkanlarından istifadə etməyə çalışırlar. Nəzərə alınmalıdır ki, Ermənistan kilsəsi ölkədə kifayət qədər nüfuza və gücə sahibdir. Bu həm də o anlama gəlir ki, keçmiş hərbi xunta və onların xarici havadarları sonuncu kartdan - kilsə faktorundan yararlanmaq istəyirlər.

Etirazların cərəyan etdiyi əsas mərkəz isə Kirants kəndidir. Kirantsda ermənilərin din xadimlərindən olan Tavuş yeparxiyasının yepiskopu Baqrat Qalstanyanın fəallıq göstərməsi diqqət çəkir. Mayın 4-də "Vətən üçün Tavuş" hərəkatının nümayəndələri erməni apostol kilsəsinin Tavuş yeparxiyasının arxiyepiskopu Baqrat Qalstanyanın rəhbərliyi ilə Kirants kəndindən İrəvana yürüşə başlayıblar. Mayın 9-da onlar Hayastan paytaxtına gəlməyi planlaşdırırlar.

Yerli mediada yepiskopun Paşinyana müxalif dairələrlə, xüsusən də keçmiş hərbi xuntanın əsas fiquru sayılan hərbi cani Robert Koçaryanla gizli görüş keçirməsi barədə məlumatlar yayılıb. Bəzi saytlar bunu hətta "kulisdə çevrilişə hazırlığın aparılması" kimi də qiymətləndirirlər. Maraqlıdır ki, Hayastanın ikinci prezidenti Robert Koçaryanın ofisi məsələyə dərhal reaksiya verib. Hərbi cani erməni apostol kilsəsinin Tavuş yeparxiyasının rəhbəri ilə görüş keçirməsi barədə yayılan məlumatı təkzib edib.

Hayastan Milli Təhlükəsizlik Xidmətinin direktoru vəzifəsini icra etmiş polkovnik Mikael Ambartsumyan isə erməni apostol kilsəsinin Tavuş yeparxiyasının yepiskopu Baqrat Qalstanyanı dəstəklədiyini bəyan edib. O, kilsənin mövqeyini açıq-aşkar müdafiə edərək, kobud güclə hakimiyyəti uzun müddət saxlamağın mümkünsüz olduğunu bildirib.

Mikael Ambartsumyan 2020-ci il avqustun 11-də Ermənistan Prezidentinin fərmanı ilə Milli Təhlükəsizlik Xidmətinin direktor müavini, 8 oktyabr 2020-ci ildə isə Milli Təhlükəsizlik Xidmətinin direktor əvəzi təyin edilib. 2 noyabr 2020-ci il tarixində tutduğu vəzifədən uzaqlaşdırlıb və onun işdən çıxarılması baş nazir Nikol Paşinyanın təklifi ilə reallaşıb.

Hayastan parlamentinin sədri Alen Simonyan isə erməni apostol kilsəsinin Tavuş yeparxiyasının arxiyepiskopu Baqrat Qalstanyanın İrəvana doğru təşkil etdiyi yürüşə münasibət bildirərkən deyib ki, ölkədə hakimiyyət ancaq 2026-cı ildə və yalnız seçki yolu ilə dəyişə bilər. O, əlavə edib ki, Hayastan xalqı 2018-ci ildə seçdiyi hakimiyyətə olan münasibətini 2021-ci ildə yenidən onu dəstəkləməklə ifadə edib.

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xuntanın və ona bənzər digər ara qızışdıranların çevriliş etmək cəhdləri erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, onun xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər hazırkı hakimiyyəti çətin vəziyyətdə qoyub. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### ASCO-nun struktur idarələrinə tələb olunan qapı və mebel aksesuarlarının satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 16 may 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Xidməti araşdırmalar idarəsinin prokuroru Azad Fətullayevə anası

**PAKİZƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevə əzizi

**AYDIN ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov və komissiya üzvləri Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevə əzizi

**AYDIN ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevə əzizi

**AYDIN ABDULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Avrasiya Universitetinin rektoru, professor Nazim Hüseynli Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevə əzizi

**AYDIN ABDULLAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4292
Sifariş 1009

Qiyməti 60 qəpik